# İÇİNDƏKİLƏR


Universitet xəbərləri 3
*Eldəniz İbrahimov.* Təsviri sənətimizin zirvəsi 8
*Nahid Əliyev, Zaur Nəsibov.* Şanxay xatirələri 16
NDU xəbərləri 18
Təhsil 25
Gənclik 26
*Kamala Asgarova.* Are You Misunderstood When You Speak English? Then Don't Waste Time and Improve Your Pronounciation 28
Gürcüstanın yeni prezidenti- Georgi Marqvelaşvili 30
*Lidiya Gamidova.* Why Read Classics? 32
Elm 33
*Этибар Рзазаде.* Психофизиологические показатели оператора и компьютерное обучение 34
Dünya 36
Mədəniyyət 38
İKT 41
Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə dövlət strategiyası 42
İslam dünyada 49
*Oskar Uayld.* Milyonçu model 52
*Vaqif Məmmədov.* Şeirlər 58
*Abdulla Suvar.* Tariximizin daş yaddaşı - Qobustan 60
Təbabət 62
Mozaika 65
İdman 68
"Dünya" məktəbi 76



Xəzər Xəbər

1995-ci ilin yanvarından çıxır

Təsisçi:
**XƏZƏR UNİVERSİTƏSİ**

Baş redaktor:
**Hamlet İSAXANLI**

Baş redaktor müavini:
**Əlirza BALAYEV**



Redaksiya heyəti:
**Camal MUSTAFAYEV**
**Cəmil HƏSƏNLİ**
**Nizami CƏFƏROV**
**Knyaz ASLAN**
**Əfqan ABDULLAYEV**



Rəssam:
**Mir Rafiq ƏBDÜLRƏHİMOV**

Kompüter tərtibatçısı:
**Nigar AYDƏMİROVA**

Foto:
**MEDİA MƏRKƏZİ**



*Ünvanımız:*
*Bakı, Məhsəti küçəsi 11,*
*("Neftçilər" metrosunun yanı)*
*Faks: 498-93-79*
*Telefon: 421-79-16*
*421-10-93*
*E-mail: xazarxabar@khazar.org*



*Şəhadətnamə: 376*
*İndeks: 67178*
*Sifariş: 190*
*Tiraj: 3000*

# UNİVERSİTET XƏBƏRLƏRİ




## MÜƏLLİMİMİZİN KİTABI TÜRKİYƏDƏ ÇAP OLUNMUŞDUR

Qafqaz Beynəlxalq Münasibətlər və Strateji Araşdırmalar Mərkəzinin üzvü, Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müəllimi Araz Aslanlının oktyabr ayında Türkiyədə "Yeni Küresel Mücadelede Kafkasya ve Karabağ Sorunu" adlı kitabı çapdan çıxmışdır. Kitabda qlobal mübarizədə Cənubi Qafqazın əhəmiyyətindən bəhs edilir. Qarabağ probleminin tarixinə, həlli prosesinə toxunulur. Qarabağ probleminin həlli imkanlarından və problemin Cənubi Qafqazda gedən proseslərə təsirindən danışılır. Müəllimimizi təbrik edir, ona yeni yaradıcılıq uğurları arzulayırıq.

## ƏMƏKDAŞIMIZ ELMİ SEMİNARDA MƏRUZƏ ETMİŞDİR

Oktyabrın 19-da İqtisadiyyat və menecment departamentinin müdir əvəzi fəlsəfə doktoru Ceyhun Məmmədov Qafqaz Universiteti, Nippon Təşkilatı və Sosial İqtisadi İnkişaf Mərkəzinin təşkil etdiyi "Azərbaycanda potensialın gucləndirilməsi və beyin axını" mövzusunda keçirilmiş elmi seminarda "Təhsil və insan kapitalının formalaşması" mövzusunda məruzə etmişdir.

Ceyhun Məmmədov özünün riyazi və iqtisadi modeli əsasında Mərkəzi Şərqi Avropa, Baltikyanı, Cənub-Şərqi Avropa və Müstəqil Dövlətlər Birliyi ölkələrində insan kapitalının formalaşmasını müəyyən edən amilləri ətraflı təhlil etmişdir. Nəzəri və empirik təhlilin nəticələrindən biri kimi, keçid iqtisadiyyatı ölkələrindən beyin axınının dayanıqlı və davamlı iqtisadi inkişafa nail olmaq əsnasında beyin qazancına çevrilməsi ehtimalının çox böyük olduğunu xüsusi vurğulamışdır.

Khazar review

It has been publishing since January, 1995

Founder:
KHAZAR UNIVERSITY

Editor-in-chief:
Hamlet ISAXANLI

Associate editor:
Alirza BALAYEV

Editorial member:
Jamal MUSTAFAYEV
Jamil HASANLI
Nizami JAFAROV
Knyaz ASLAN
Afgan ABDULLAYEV

Design by:
Mir Rafig ABDULRAHIMOV

Computer graphics:
Nigar AYDEMİROVA

Photo:
MEDIA CENTRE

Address:
11 Mahsati str., Baku,
(near the "Neftchilar" metro)
Fax: 498-93-79
Phone: 421-79-16
421-10-93
E-mail: redaksiya@khazar-view.org

Certificate: 376
Index: 67178
Order: 190
Copies: 3000

AVRASYA İNCELEMELERİ MERKEZİ

CENTER FOR EURASIAN STUDIES

TÜRKMENELİ İŞBİRLİĞİ VE KÜLTÜR VAKFI
TURKMENELI COOPERATION AND CULTURAL FOUNDATION

**Sayı - Number : 1280 Tarih - Date : 28.10.2013**

## İKÇÜ, HAZAR ÜNİVERSİTESİ İLE AZERBAYCAN'A BİLİM KÖPRÜSÜ KURUYOR

27 Ekim 2013

Uluslararasılaşma hedefinde emin adımlarla ilerleyen İzmir'in yeni devlet üniversitesi İzmir Kâtip Çelebi Üniversitesi, yeni bir Mevlana Değişim Programı'nı daha hayata geçirdi. Azerbaycan'ın Hazar Üniversitesi ile imzalanan protokol kapsamında 2018 yılına kadar birçok alanda öğrenci ve öğretim üyesi değişim programlarıyla iki ülke arasında bilim köprüsü kurulacak.

Protokolü imzalamak üzere İKÇÜ'yü ziyaret eden Hazar Üniversitesi Rektörü Prof. Dr. Hamlet İsahanlı ve Genel Sekreter-Basın Halkla İlişkiler Koordinatörü Alovsat Amirbeyli'yi; Rektör Prof.Dr. Galip Akhan ev sahipliğinde, Rektör Yardımcıları Prof.Dr.Tancan Uysal,Prof.Dr.İbrahim Kocabaş, Prof.Dr.İbrahim Attila Acar, Mühendislik ve Mimarlık Fakültesi Dekanı Prof.Dr.Salih Okur'dan oluşan heyet ağırladı.

"DOST VE KARDEŞ AZERBAYCAN İLE İŞ BİRLİĞİMİZ DEVAM EDECEK"

Ziyaretin başında İKÇÜ hakkında bilgilendirmelerde bulunan Rektör Prof.Dr.Galip Akhan öğrenci sayılarının 2500'e, öğretim üyesi sayılarının 400'lere ulaştığını yeni açılan bölümlerle ve bölgede ilk kez İKÇÜ'de açılan bölümler ve fakültelerle büyümeye devam ettiklerini söyledi. Uluslararasılaşmaya verdikleri öneme vurgu yapan Rektör Prof.Dr.-Akhan, bilimsel gelişmeleri takip etmek adına İngilizce dilinin mutlaka öğrenilmesi gerektiğini söyledi. Prof.Dr.Akhan, "Dost ve kardeş Azerbaycan'ın saygıdeğer eğitim kurumu Hazar Üniversitesi ile kurduğumuz bu bağı oldukça önemsiyoruz. Herşey önce biraraya gelinerek diyalog kurulması ile başlar. Bizler bundan sonraki süreçte kurulan bu iletişimi arttırarak devam ettireceğiz." diye konuştu.

***"İKİ ÜLKE ARASINDAKİ İŞ BİRLİĞİ BİLİM DÜNYASINA YANSIYACAK"***

Hazar Üniversitesi'ni tanıtarak İKÇÜ ile yapılabilecek işbirliği çalışmalarının kendilerini çok mutlu edeceğini belirten Hazar Üniversitesi Rektörü Prof. Dr. Hamlet İsahanlı ise iki üniversite arasında kurulacak bilimsel iş birliği köprüsünün bilim dünyasına yapacağı katkıdan emin olduğunu söyledi. Konuk Rektör Prof. Dr. Hamlet İsahanlı sözlerine şöyle devam etti: “Üniversitelerimiz arasında Mevlana Değişim Programı kapsamında işbirliği yapmayı kararlaştırmış bulunmaktayız. Dinamik bir üniversitede, sevgi dolu bilim adamlarını gördüm ve inandım ki önce İzmir'de sonra bölgede Türkiye'de ve dünyada sayılan bir üniversite olacaksınız” dedi. Prof. Dr. Hamlet İsahanlı daha sonra İKÇÜ anı defterini imzaladı. Karşılıklı iyi dileklerin ardından imzalanan protokol kapsamında, taraflar karşılıklı olarak öğrenci değişiminin yanı sıra öğretim üyesi değişimini içeren ortak araştırmalar yapacak.

---

## ELEKTRON İMZAYA KEÇİDƏ DAİR ELMİ SEMİNARDA

Oktyabrın 21-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Elmi İnnovasiyalar Mərkəzində “Elektron elm: elektron sənəd mübadiləsi” mövzusunda seminar keçirilmişdir.

Universitetin Magistratura, doktorantura və elmi işlər bölməsinin əməkdaşı Leyla Salayeva seminarda iştirak etmişdir.

Seminarda elektron hökumətin səmərəliliyi, elektron imza, onun yaradılması və istifadə qaydaları müzakirə edilmişdir. Daha ətraflı məlumat üçün *www.e-imza.az* linkinə müraciət etmək olar.

## İQTİSADİYYAT VƏ MENECMENT FAKÜLTƏSİNİN UĞURU

*Eduniversal biznes məktəblərinin 2013-cü il reytinq cədvəlində xəzər universitetinin iqtisadiyyat və menecment fakültəsi azərbaycan üzrə 1-ci yerdədir*

Eduniversal Worldwide Biznes Məktəbinin 2013-ci il üçün reytinq nəticələri açıqlanmışdır. 2013-cü il Eduniversal biznes məktəblərinin reytinq cədvəlində Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsi dekanların tövsiyəsinə görə Azərbaycanda 1-ci yeri tutub (Azərbaycanın ikinci sıradakı biznes məktəbi 28% nəticə əldə etmişdir). Bu fakültə 2007-ci ildən dünyanın ilk 1000 biznes məktəbi sırasında yer alır və Azərbaycanda ən yaxşı fakültələrdən biri kimi reytinq sıralamasında yeddi dəfə qeyd olunub. Bu, Xəzər Universitetində təlim və tədrisin yüksək keyfiyyətini, universitetin beynəlxalq nüfuzunu, görkəmli professor-müəllim heyətininin əməyini və məzunların uğurunu əks etdirir.

Eduniversal ali təhsil sahəsində Qlobal Reytinq Agentliyidir. İllik reytinq iki ayrı komponentə əsaslanır: beynəlxalq meyarlar və dekanların səsverməsi.

Hər il ən yaxşı biznes məktəblərini müəyyən etmək üçün 1000 ən yaxşı tədris müəssisəsinin dekan və ya direktorları ilə sorğu aparılır və 154 ölkədə Eduniversalın rəsmi seçimi üçün tövsiyələr verilir. 2013-cü il üçün dekanların sorğusunun nəticələri oktyabrın 9-12-də Hindistanın Bangalore şəhərində keçirilən 6-cı Eduniversal Dünya Konvensiyasında rəsmən elan edildi.

Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsi Azərbaycanda aparıcı biznes məktəbidir. Bu fakültə uzun müddətdir ki, bakalavr və magistr proqramları təklif edir.

Proqramların tədrisi ingilis dilindədir. Fakültənin Avropa və ABŞ-ın aparıcı universitetlərində təhsil almış professor-müəllim heyəti tədrisin ən yüksək standartlarına cavab verir. Bundan başqa, tədris proqramı və dərslərin təşkili aparıcı Qərb təhsil modellərinə əsaslanır. Milli şərait nəzərə alınmaqla məzunlara yerli və beynəlxalq bazarlarda rəqabətə tab gətirmək qabiliyyəti aşılanır.

Yarandığı gündən etibarən fakültənin məzunlarına əmək bazarında yüksək tələbat mövcuddur. Məzunlarının, demək olar ki, hamısı ya işlə təmin olunur, ya da təhsilini davam etdirirlər.

Fakültənin məzunları Azərbaycan, Böyük Britaniya, Fransa, Almaniya, İspaniya, İtaliya, ABŞ, Çin, Yaponiya, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, Qazaxıstan və Rusiyada özəl, dövlət və qeyri-kommersiya sektorunda əsas vəzifələrdə işləyirlər. Onlar Azərbaycan Respublikasının Mərkəzi Bankı, Vergilər Nazirliyi, ARDNŞ, BP, Moore Stephens, Ernst & Young, Deloitte, Baker McKenzie və bir çox digər yerli və beynəlxalq şirkətlər, nazirliklər, təşkilatlar və maliyyə müəssisələrində çalışırlar. Məzunların bir çoxu Azərbaycanda və xaricidə öz şirkətlərini quraraq, uğurlu sahibkara çevrilmişlər.

## KEYFİYYƏTİN TƏMİNATI MƏRKƏZİNİN DİREKTORU LİTVADA

Xəzər Universitetinin Keyfiyyətin Təminatı Mərkəzinin direktoru Lyudmila Sotova oktyabrın 24-25-də Litvanın Kaunas Texnologiyalar Universitetinin ev sahibliyi etdiyi Şərq Tərəfdaşlığı ölkələri üçün nəzərdə tutulan "Erasmus+" Məlumat Günündə iştirak etdi.

Tədbirə Avropa Komissiyası (AK) tərəfindən Litvanın Kaunas Texnologiyalar Universitetinin ev sahibliyi ilə 2014-cü ilin yanvarında start veriləcək "Erasmus +" proqramının təqdimatı məqsədilə təşkil edilmişdi. "Erasmus +" proqramı Şərq Tərəfdaşlığı ölkələri universitetlərinin tələbə və işçi heyəti üçün Avropada təhsil almaq və ya təlim keçmək imkanlarını daha da genişləndirəcək.

Məlumat Günündə universitetlər, təhsil nazirlikləri, AB üzvü olan ölkələrin tələbə birlikləri və Şərq Tərəfdaşlığının altı ölkəsindən (Azərbaycan, Ermənistan, Gürcüstan, Belarus, Moldova və Ukrayna) 130 nümayəndə iştirak edirdi.

Tədbir iki gün davam etdi. Tədbirin ilk günü qonaqlar Litvanın ali təhsil sistemi ilə tanış oldular. Tədbirin ikinci günü sessiyalar keçirildi. AK nümayəndələri "Erasmus +" proqramının yeni elementləri və prinsipləri haqqında məlumat verərək, qabiliyyətlərin inkişaf etdirilməsi, kredit və dərəcə mobilliyi haqqında danışdılar.

## "HALLOVEN" ŞƏNLİYİ




İş təcrübəmdən bilirəm ki, müxtəlif bayramlarla əlaqədar tədbirlərin keçirilməsi tələbələri xarici dili mənimsəməyə həvəsləndirir. Bu səbəbdən tələbələr ilə "Halloven şənliyi" keçirməyə qərar verdim. Beləliklə, oktyabrın 28-29-da universitetin ikinci kurs tələbələri ilə (Mühəndislik və tətbiqi elmlər fakültəsinin Akademik İngilis dili A qrupunun və Humanitar və sosial elmlər fakültəsinin Akademik İngilis dili E qrupunun tələbələri ilə) bu bayramı qeyd etdik.

Tələbələr qorxulu geyimlər geyindilər, Xeyir və Şərin mübarizəsini əks etdirən səhnəcik göstərdilər, balqabağı oyub, qorxulu şəklə saldılar, almalarla ənənəvi oyun keçirdilər, Halloven haqqında şeirlər oxuyub, mahnılar ifa etdilər. Falçı rolunda çıxış edənlər gələcək haqqında məlumat verdilər. Ümumiyyətlə, tədbirimiz yaxşı alındı və tələbələrin çox xoşuna gəldi

Universitetimizin müəllimləri Cəmalə Məmmədova, Minarə Fərzəliyeva və Yeganə Balamedova da şənliyimizin qonağı oldular. Ümid edirəm ki, biz gələcəkdə də buna oxşar şənliklər təşkil edəcəyik

*Xuraman Məmmədova,*
*Xəzər Universiteti İngilis dili və ədəbiyyatı departamentinin müəllimi*

## XƏZƏR UNİVERSİTETİ 2013-2014-CÜ TƏDRİS İLİ ÜÇÜN ƏYANİ (ÖDƏNİŞLİ) DOKTORANTURAYA VƏ DİSSERTANTURAYA QƏBUL ELAN ETMİŞDİR

***Doktoranturaya qəbul aşağıdakı ixtisaslar üzrədir:***

Analiz və funksional analiz (1yer); Diferensial tənliklər (1); Kompüter elmləri (2); Sistemli analiz idarəetmə və informasiyanın işlənməsi (2); Ümumi iqtisadiyyat (1); Dünya iqtisadiyyatı (1) Müəssisələrin təşkili və idarə olunması (2); Daxili fiskal siyasət və dövlət maliyyəsi (1); German dilləri (5); Azərbaycan ədəbiyyatı (1); Sosial fəlsəfə (1); Fəlsəfə tarixi (1); Ümumi tarix (1); Vətən tarixi (1); Beynəlxalq münasibətlər (2); Siyasi nəzəriyyə (1).

***Dissertanturaya qəbul aşağıdakı ixtisas üzrədir:***

German dilləri (1).

Fəlsəfə doktoru proqramı üzrə doktoranturada əyani təhsil müddəti 3 il, dissertanturada təhsil müddəti isə 4 ildir.

Fəlsəfə doktoru proqramı üzrə elan olunmuş doktorantura və dissertantura yerlərinə ali təhsili olan (ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən, yaxud təhsili ona bərabər tutulan) Azərbaycan Respublikasının vətəndaşları müsabiqə əsasında qəbul olunurlar.

Sənədlərin qəbulu artıq başa çatmışdır. Qəbul imtahanları **10-20 dekabr** tarixlərində keçiriləcək.

## ŞANXAY XATİRƏLƏRİ

… Hər şey bir zənglə başladı, dekanın katibəsinin bir zəngi ilə: Nahid, Çinə getmək istəyirsən? Sual mənim gözəl yay tətilimi keçirməyimə sanki bir başlanğıc oldu. Dekanlıqda adımı siyahıya yazdıranda mənim kimi başqa tələbə yoldaşlarımın da Çinə getmək arzusunda olduqlarını gördüm. Amma mən, demək olar ki, hər kəsdən daha çox Çinə getməyi arzulayırdım və belə də oldu. Tələbəmiz Zaur Nəsibovla iyulun 7-nə bilet aldıq və Şanxay şəhərində Çin Normal Şərqşünaslıq Universitetində (East China Normal University) 1 aylıq kurs keçmək üçün həmin şəhərə yollandıq.



Hava limanında bizi Çində təhsil almış Aqşin müəllim qarşıladı, artıq qaranlıq düşmüşdü. Biz universitetdə qeydiyyatdan keçdikdən sonra, Aqşin müəllimin müşayiəti ilə universitetin həyətində gəzintiyə çıxdıq. Universitetin həyətindəki "Korea Manna" restoranında şam yeməyi yedik. Azərbaycanın gözəl mətbəxindən tamamilə fərqli yeməklər idi. Korea mətbəxində, mən bildim ki, yemək növləri çox azdır, amma Çin mətbəxində sayıla bilinməyəcək qədər yemək növləri var. Yeməkdən sonra müasir və rahat yataqxanamıza qayıtdıq...

İlk günümüz digər ölkələrdən kursa gəlmiş tələbələrlə tanışlıqla keçdi. Çox səmimi və mehriban uşaqlar idi. Hər birimiz müxtəlif ölkələrdən idik – Amerika, Kanada, İspaniya, Meksika, Almaniya, İngiltərə, İran, Fransa, Şimali Korea və Türkiyədən... Qısa zaman ərzində yeni dostlar qazandıq.

Həftənin 5 günü dərs, 2 günü istirahət üçün ayrılmışdı. Hər həftənin bir günü universitetin idman zalında Taichi – idman dərsi keçirilirdi. Bizə Çinin ənənəvi döyüş növlərini öyrədirdilər. Çinin heroqlifləri öyrədilən dərs də keçirilirdi. Axşam havalar sərinləşən zaman mən, Zaur, türk dostlarımız Irmak və Furkanla bərabər şəhəri seyrə çıxırdıq. Çox zaman birlikdə gəzir və birlikdə vaxt keçirirdik. Digər tələbələrlə də hər axşam birimizin otaqında yıqışıb söhbət edir, öz ölkələrimiz haqqında danışır, maraqlı müzakirələr aparırdıq.

İyulun 13-də universitetin təşkilatçılığı ilə bizi Çinin tarixi bir kəndinə apardılar. Təqribən 30 nəfər idik. Beş-altı nəfərlik qruplara bölünüb kəndi gəzməyə çıxdıq, gördüyümüz hər şey bizə qeyri-adi və maraqlı gəlirdi: müxtəlif növ paltarlar, suvenirlər, rəsm əsərləri, musiqi alətləri, növbənöv şirniyyatlar, yeməklər və s. Biz ətrafı doyunca gəzib, nahar yeməyi üçün münasib bir Çin restoranı tapdıq. Menyudan heç bir şey anlamadıqımız üçün hər bir yeməkden sifariş verdik. Nahardan sonra çayxanada uşaqlarla zər və kağız oyunları oynayıb, çin çayından və limonadından daddıq. Yataqxanaya zəngin təəssüratlarla qayıtdıq.



Şanxayı nə qədər gəzdiksə, görmədiyimiz çox yer qalmışdı. İyulun 21-də bizi Şanxay muzeyinə apardılar. Muzeydə Çinin mədəniyyəti, qədim sənət əsərləri ilə tanış olduq. Həmin gün axşam sirkə getdik. Çox maraqlı səhnələr gördük. Motosikletlərin şousu bizi xüsusilə valeh etdi.

Artıq avqust ayı gəlmişdi, Azərbaycana dönməyimizə az qalırdı. Son günlərimizi necə keçirəcəyimizə artıq qərar vermişdik. Yeddi nəfərlik qrupla Çinin məşhur Hongqiao əyalətinə səyahətə getdik. Biz ora Çinin sürəti saatda 300 km olan qatarıyla iki saata getdik. Hongqiao Çinin ən qədim və ən gözəl mənzərələrə malik bir əyalətidir. Məşhur Hongqiao gölü dünyanın ən gözəl gölləri siyahısındadır. Hongqiaoda qədim bir məbəd vardır; insanlar orada nə arzulayarlarsa, reallaşacağına inanırmışlar.



Nəhayət, imtahan günü – avqustun 3-ü gəlib çatdı. Çox həyəcanlı idik. İmtahanın birinci hissəsi – Writing – yazılı idi. Həyəcanım getdikcə azalmağa başladı və asanlıqla yaza bildim. Sonra imtahanın ikinci hissəsi – Speaking – başladı. Biz ancaq Çin dilində danışmalı və Çinin mədəniyyəti haqqında məlumat verməli idik. Hiss etdim ki, müəllim cavabımdan razı qaldı. İmtahan bitəndən bir neçə saat sonra konfrans zalında son tədbirimiz keçirildi: hansı tələbənin bu yay məktəbini uğurla bitirib, sertifikat alacağı məlum olacaqdı. Və nəhayət, bizim adımız oxundu: Nahid Əliyev və Zaur Nəsibov.



Sertifikatlarımız bizə təqdim olundu. Çox sevincli idim: çünki mənim imtahan nəticəm Writing – 88, Speaking – 95 balla qiymətləndirilmişdi.

Avqustun 5-də kursda iştirak etmiş xarici ölkələrin tələbələri ilə vidalaşıb, təyyarə ilə vətənə döndük. Çində keçirdiyimiz yay günləri həmişəlik xatirimizdə qalacaq.

*Nahid Əliyev,*
*Zaur Nəsibov,*
*İqtisadiyyat və menecment fakültəsinin 4-cü kurs tələbələri*

## "ARŞIN MAL ALAN" OPERETTASININ 100 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏDBİR

Oktyabrın 25-də Üzeyir Hacıbəylinin ev muzeyində "Arşın mal alan" operettasının 100 illik yubileyinə həsr olunmuş tədbir təşkil olunmuşdu. Tədbiri giriş sözü ilə Üzeyir Hacıbəylinin ev muzeyinin direktoru – əməkdar incəsənət xadimi, bəstəkar Sərdar Fərəcov açdı. Bəstəkarlar İttifaqının sədri, xalq artisti, professor Firəngiz Əlizadə, Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru Telman Ağdamski, Azərbaycan Dövlət Musiqili Teatrının direktoru Əliqismət Lalayev, muzeyin böyük elmi işçisi Sevinc Quliyeva operettanın yaranma tarixindən geniş məlumat verdilər.

M.F.Axundov adına Akademik Opera və Balet Teatrının solistləri İlahə Əfəndiyeva, Ramin Qasımov, Azərbaycan Dövlət Musiqili Teatrının solistləri – əməkdar artist Nərgiz Kərimova, əməkdar artist Nahidə Orucova və Əzizağa Əzizovun iştirakı ilə "Arşın mal alan" operettasından müxtəlif səhnəciklər göstərildi. Tədbirə Xəzər Universitetinin Musiqi və incəsənət departamenti də dəvət olunmuşdu. Əsgər rolunu Humanitar və Sosial elmlər fakultəsinin tələbəsi Elvin Əliyev ifa etdi. Pianoda Xəzər Universitetinin Musiqi və incəsənət departamentinin müdiri Zülfiyyə Sadıqova müşayiət edirdi.

## ƏMƏKDAŞIMIZ III BAKI BEYNƏLXALQ HUMANİTAR FORUMUNDA

Xəzər Universiteti Magistratura, doktorantura və elmi işlər bölməsinin müdiri, fəlsəfə elmləri üzrə fəlsəfə doktoru Eldar Şahgəldiyev noyabrın 1-də "Multikulturalizm və özgünlük: cəmiyyətdə dəyər konsensusu axtarışında" adlı III Bakı Beynəlxalq Humanitar Forumunda iştirak etmişdir.

Forum dünyanın müxtəlif ölkələrindən siyasət, elm, mədəniyyət və təhsil xadimləri, vətəndaş cəmiyyəti və KİV nümayəndələrinin iştirakı ilə keçirilmişdir. Tədbirdə dövlətlərarası və regional əməkdaşlığın bütün səviyyələrdə həmrəyliyinin zəruriliyi qeyd edilib, inkişaf proseslərinin davamlılığının təmin edilməsi naminə elmi, humanitar və mədəni inteqrasiyanın aktuallığı vurğulanıb.

"Xəzər Xəbər"in NDU bürosu

## ALMANİYADA YAY KURSLARINDA İŞTİRAK ETMƏK ÜÇÜN İMTAHAN



Alman Akademik Mübadilə Xidmətinin (DAAD) Bakı Məlumat Mərkəzinin rəhbəri Nikola Ulliş noyabrın 4-də Naxçıvan Dövlət Universitetində olmuşdur. Rəsmi qəbul zamanı universitetin rektoru, professor Saleh Məhərrəmov NDU-da dünya təhsil sisteminə inteqrasiya, ali təhsil sahəsində ümumavropa təcrübəsinin öyrənilməsi və tətbiqi istiqamətində görülən işlərdən danışdı. Rektor Almaniya ilə də tələbə mübadiləsinin genişləndirilməsinin əhəmiyyətini vurğuladı.

N. Ulliş təmsil etdiyi qurum haqqında ətraflı məlumat verərək, Alman Akademik Mübadilə Xidmətinin alman ali məktəblərinin birgə qurumu və beynəlxalq əməkdaşlıq sahəsində ən böyük maliyyələşdirici təsisat olduğunu bildirdi.



Sonra tələbə və magistrlər qarşısında geniş təqdimat oldu. N. Ulliş DAAD Bakı Məlumat Mərkəzinin iki ölkə arasında təhsil sahəsində əməkdaşlıq çərçivəsində yaradıldığını qeyd edərək, onun fəaliyyət istiqamətlərindən danışdı. O, Mərkəzin əsas missiyasının Almaniyada təhsil və tədqiqat imkanları barədə məlumatların yayılmasından, Almaniya ali məktəblərində mövcud olan ixtisas və fakültələr barəsində məlumatların Azərbaycan ali məktəblərinə çatdırılmasından, Azərbaycan ali məktəbləri və tədqiqat mərkəzləri üçün ayrılmış tədqiqat proqramları barəsində yeniliklərin maraqlı tərəfdaşlara bildirilməsindən və müxtəlif təqaüd proqramları üzrə müsabiqələrin keçirilməsindən ibarət olduğunu diqqətə çatdırdı.

Sonra Almaniyada yay dil kurslarında iştirak etmək üçün universitetin II və III kurs tələbələrinin, I kurs magistrantların qatıldığı online imtahan keçirildi. İmtahanın nəticələri 2014-cü ilin mart-aprel aylarında elan olunacaq.

## FRANSA SƏFİRLİYİNİN NÜMAYƏNDƏLƏRİ NDU-DA



Fransanın Azərbaycandakı səfirliyinin əməkdaşlıq və mədəniyyət müşaviri İv Zoberman Naxçıvan Muxtar Respublikasına səfər çərçivəsidə noyabrın 8-də NDU-da olmuşdur. Qonağı səfirliyin əməkdaşlıq və mədəniyyət attaşesi Vənsan Lorenzini və dilçilik və təhsil sahəsində əməkdaşlıq missiyasının rəhbəri Şarlot Payen müşayiət etmişdir. Universitetin beynəlxalq əlaqələr üzrə prorektoru, riyaziyyat üzrə fəlsəfə doktoru Anar Kazımov qonqları salamlayaraq, fransız dilinin tədrisi, mədəniyyətinin təbliği, frankofoniya bayramının ənənəvi şəkildə qeyd olunması barədə də ətraflı məlumat vermiş, bu ölkənin ali təhsil ocaqları ilə əməkdaşlıq əlaqələrinin əhəmiyyətini vurğulamışdır.

İv Zoberman Azərbaycanın qədim və ayrılmaz parçası olan Naxçıvan haqqında xoş təəssüratlarını bölüşmüş, Azərbaycan və Fransa dövlətləri arasında bir çox sahələrlə yanaşı elm və təhsil sahəsində də əməkdaşlığın inkişafından danışmışdır. Görüşdə gələcək tərəfdaşlıq məsələləri müzakirə olunmuşdur.

Sonra Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin fransız dili müəllimliyi ixtisasının müəllim və tələbələri ilə diskussiya xarakterli görüş keçirilmişdir. Görüşdə müəllim və tələbələrin sualları cavablandırmış, tələbələrin ifasında fransız dilində şeir və mahnılar səslənmişdir.

## GÖRKƏMLİ MUĞAM USTALARI UNİVERSİTETDƏ



Məlum olduğu kimi, Heydər Əliyev Fondunun, Azərbaycan Mədəniyyəti Fondunun və Azərbaycan Televiziyasının dəstəyi ilə “IV Muğam televiziya müsabiqəsi”nin növbəti seçim mərhələsi oktyabrın 23-də Naxçıvan şəhərində keçirildi. Müsabiqənin münsiflər heyətinin üzvləri, Azərbaycan Respublikasının xalq artistləri Xəzər Universitetinin müəllimi Arif Babayev, Ağaxan Abdullayev, Səkinə İsmayılova, Mənsum İbrahimov və Azərbaycan Bəstəkarlar İttifaqının katibi, əməkdar incəsənət xadimi, bəstəkar Sərdar Fərəcov səfər çərçivəsində Naxçıvan Dövlət Universitetində də oldular.

Naxçıvan Dövlət Universitetinin rektoru, professor Saleh Məhərrəmov qonaqları salamlayaraq, son illərdə Azərbaycan incəsənətinin, xalq musiqisinin, xüsusilə də dünya incəsənətinin nadir inciləri sayıla biləcək muğamlarımızın təbliğinə göstərilən dövlət qayğısından danışdı.

Azərbaycan Respublikasının xalq artistləri Arif Babayev, Ağaxan Abdullayev çıxış edərək, son illərdə gənclərdə milli musiqiyə böyük rəğbət yaranmasından danışdılar.

İncəsənət fakültəsinin müəllim və tələbələrinin hazırladıqları konsert proqramında Azərbaycan və dünya bəstəkarlarının əsərləri səsləndirildi. Sonra İncəsənət fakültəsinin tələbələri muğamlarımızı ifa etdilər. Tanınmış muğam ustaları bu qədim sənətin sirləri, muğam ifaçılığında tələb olunan peşəkarlıq, səhnə mədəniyyəti ilə bağlı gənc ifaçılara tövsiyələrini bildirdilər.

## TƏLİM KURSU BAŞA ÇATDI



NDU-da Azərbaycan Hökuməti və Beynəlxalq İnkişaf Assosiasiyasının birgə həyata keçirdiyi “Dövlət investisiyaları üzrə kadr potensialının gücləndirilməsi” layihəsi çərçivəsində “Statistik təhlil" mövzusunda keçirilən növbəti təlim kursu noyabrın 7-də başa çatmışdır.

Kursun yekununda universitetin beynəlxalq əlaqələr üzrə prorektoru, riyaziyyat üzrə fəlsəfə doktoru Anar Kazımov qeyd etdi ki, bir il ərzində universitetdə müxtəlif mövzulara həsr olunmuş, uğurla reallaşdırılan təlim kursları regionun bütün dövlət strukturlarının və nazirliklərin əməkdaşlarını, habelə universitetin müxtəlif ixtisaslar üzrə müəllim və tələbələrini əhatə etmişdir. O, əmin olduğunu bildirdi ki, təlim kursu nəticəsində statistik təhlilin istifadəsi üzrə potensial güclənəcək və ekspertlərlə bərabər, təlimdə fəal iştirak edən müəllim və tələbələr də yeni metodologiya və materiallardan faydalanacaqlar.

Ekspert təlimçi, Azərbaycan Dövlət İqtisad Universitetinin əməkdaşı, Azərbaycan Universiteti Biznes məktəbinin dekanı Elçin Rəşidov, İqtisadi və Sosial İnkişaf Mərkəzinin eksperti, ekonometrika və maliyyə fənləri üzrə təlimçi Ziya Əlili təlimin lazımi səviyyədə təşkilinə görə universitet rəhbərliyinə minnətdarlıqlarını bildirdilər.

***Mehriban SULTAN,***
***NDU-nun Mətbuat şöbəsinin müdiri***

## TƏSVİRİ SƏNƏTİMİZİN ZİRVƏSİ

*(Əvvəli səh. 8- də)*




Şəhərimiz inşaat “bumu” təsirilə sürətlə dəyişir. Lakin keçmiş Qasım İsmayılov küçəsində onun 1928-ci ildə doğulduğu 7 saylı ev hələ də qalmaqdadır. Rəssamın taleyində qarışıqlıq məktəb illərindən başlamışdı – Bakı Soveti yaxınlığındakı “üçbucaq” məkanda gah 6 saylı, gah 189, gah da 132 saylı məktəblərdə oxuyurdu. Rəsm dərnəklərindəki məşğələlərə də ilk siniflərdən başlamışdı. Məktəblilərin öz maraqlarına müvafiq olaraq müxtəlif dərnəklərdə çalışması o vaxt adi bir şey idi. Lakin rəssamlığa bu qədər fanatikcəsinə aludə olmaq adi bir şey deyildi. Aydındır ki, bütün dövrlərdə rəssamlara necə baxırdılarsa, balaca Tahirə də elə baxmağa başladılar – qəribəlikləri olan adam kimi.

1937-ci ildə Qarabağın Laçın rayonunda Rayon Partiya Komitəsinin birinci katibi – rayonun faktiki rəhbəri işləyən atasını bir çox görkəmli Azərbaycan ziyalıları kimi həbs etdilər. Rəssamın anası beş uşaqla tək qaldı.



**Rəssam həyat yoldaşı Varvara ilə. 1980**

Uzun illər keçəndən sonra Tahir Salahov o vaxt Dövlət Təhlükəsizlik Komitəsində işləyən Heydər Əliyevin köməyi ilə arxivlərdən atasının “cinayət işi” saxlandığı qovluğu çıxarıb oxumağa nail oldu. Həm istintaqı, həm də məhkəməni əvəz edən “üçlüyün” cəmi 15 dəqiqə ərzində çıxardığı qərar ölüm hökmü idi. Hökmdə yazılmışdı: ”Qərar dərhal yerinə yetirilsin...”.

Xalq düşməninin arvadı statusu ilə, beş uşaqla tək-tənha qalan ananın nə məşəqqətlər çəkdiyini təsəvvür etmək çətin deyil. Məşhur rəssamın anası ilə kasıb, çoxuşaqlı bir ailənin toyunda, masa arxasında yanaşı oturmuş, söhbətlərindən doymamışam. Əzablı həyat yaşamış bu qadının gözlərində və söhbətlərində nə qədər şəfqət vardı!



**Rəssamın atasıTeymur Salahov və anası Sona Salahova**

Başsız qalmış ailəyə kömək etmək üçün Tahir məktəbdə təhsilini yarımçıq qoymalı və işləməli oldu. Əvvəlcə Bakı su kəməri idarəsində nəzarətçi işlədi, evlərdə və idarələrdə su sayğaclarını yoxladı. Müxtəlif adamlarla görüşlər yeniyetmə rəssamın dünyagörüşünü, həyat haqqında təsəvvürlərini xeyli genişləndirirdi.

1944-cü ildən etibarən Dağüstü mədəniyyət və istirahət parkındakı yay kino-teatrında rəssam kimi işə düzəlir. 16 yaşlı rəssam yalnız kağız üzərində afişa çəkmir, onun elan və afişalarının çoxu şəhərin asfalt yollarının üzərində də həkk olunurdu. Gərgin müharibə illəri idi. Hər adam asfalt üzərində nəsə yaza bilməzdi. Tahir Salahovun xüsusi buraxılış vərəqəsi vardı. Hərbi patrullar gənc rəssamın asfalt üzərində işlədiyi möcüzəli rəsmlərə heyranlıqla tamaşa edir, hərdən öz əsgər paylarını onunla bölüşürdülər. Mülki piyadalar isə ayaq saxlayıb konsert və tamaşalar haqqında elanları oxuyur, sonra yollarına davam edərdilər. Bu andan etibarən onun rəssam taleyi göyərçin kimi asfalt üzərindən yüksəkliklərə pərvaz etməyə başladı.

Mədəniyyət və istirahət parkında işləyərkən bir çox tanınmış mədəniyyət xadimləri ilə tanış olmuşdu. Onlardan biri – mühacirətdən qayıtmış məşhur rus müğənnisi Aleksandr Vertinski idi. Vertinski dünyanın bir çox ölkəsində, hətta Çində belə yaşamış, Şalyapin, Çar-

li Çaplin, Marlen Ditrix, knyaz Yusupov kimi məşhur adamlarla dostluq etmişdi. Balaca rəssamla da böyük müğənninin tanışlığı dostluğa çevrildi. Sonralar Moskvada Surikov adına Rəssamlıq İnstitutunda Tahir Salahov müğənninin həyat yoldaşı Liliya xanımla birlikdə oxumuşdur. Aleksandr Vertinskinin qızı – məşhur aktrisa Anastasiya Vertinskaya və ailənin digər üzvləri ilə görkəmli soydaşımızı indi də dostluq əlaqələri bağlayır.

Ağır müharibə illərindən sonra Qafqazın dayağı olan Bakı tədricən mədəni mərkəz simasını bərpa edir. Elə şəhərlilərin də əhval-ruhiyyəsi durulmağa başlayır, bayram atmosferi yaranır. Bu illərdə Tahir Salahov Bakı Rəssamlıq Texnikumuna daxil olur və bir neçə il bu nüfuzlu incəsənət ocağında təhsil alır.



**T. Salahova "Heydər Əliyev" ordeni təqdim olunması mərasimində. 2008**

1957-ci ildə isə Surikov adına Moskva Rəssamlıq İnstitunu bitirir. Bu zaman Azərbaycanda Tahir Salahovu hamı artıq görkəmli rəssam kimi tanıyırdı. Təsadüfi deyil ki, cəmi bir neçə ildən sonra – 1960-cı ildə Azərbaycan Rəssamlar İttifaqının məsul katibi vəzifəsinə seçilir. Bu illərdə Mirzağa Əliyev adına Dövlət Teatr İnstitutunda bir-birinin ardınca müəllim, dosent, professor vəzifələrində çalışır. Sonralar pedaqoji fəaliyyətini V.İ. Surikov adına Rəssamlıq İnstitutunda davam etdirir, burada rəssamlıq və kompozisiya kafedrasının müdiri kimi çalışır. Çoxillik pedaqoji fəaliyyətində Tahir Salahov Azərbaycanın bir çox istedadlı gənc rəssamlarının yetişməsində mühüm rol oynamışdır.

Tahir Salahov həm yaradıcılığına, həm milli təsviri sənətimizin inkişafında oynadığı roluna, həm də zəngin yaradıcı bioqrafiyasına görə Azərbaycanın milli təsviri sənətində ön yerlərdən birini tutur. Məhz bu ustad rəssam uzun illər boyu əsl yaradıcı şəxsiyyət haqqında formalaşmış stereotipi – rəssamın ancaq tərki-dünya həyat sürməsi, cəmiyyətin xırda qayğılarından təcrid olmaq bacarığına malik ola bilməsi və s. bu kimi təsəvvürləri sındırmışdır.

Şübhə yoxdur ki, rəssam (eləcə də istənilən yaradıcı şəxs) xırda məişət qayğılarını yaradıcı axtarışlardan üstün tutmamalıdır. Lakin, eyni zamanda, cəmiyyətdə baş verən proseslərdən də kənarda durmamalıdır - böyük sənətkar həm də böyük vətəndaşdır. Tahir Salahov məhz belə bir yaradıcı şəxsiyyətdir, yaradıcılıq onun üçün hər şeydən üstündür. Rəngkarlığa yüngül, həzz gətirən bir iş kimi baxmağın əleyhinədir.Nə vaxtsa demişdi: "Yaradıcılıq mənim üçün uzun və iztirablı bir prosesdir, sona yetəndə xoşbəxtlik hissi duyuram".



**Heydər Əliyevlə
Kremlin Qurultaylar sarayında. 1976**

Tahir Salahov Azərbaycan milli təsviri sənətinə "sərt üslub" deyilən təmayülü gətirən rəssamlarımızdandır. Ötən əsrin altmışıncı illərində Bakının sərt sənaye görkəmini – neft buruqlarını, dəniz neft mədənlərinin siluetlərini, zavod və fabrik binalarını, yanacaq daşıyan eşelonları şəhər mərkəzinin lap yaxınlığından görmək olardı.



**Rusiya Federasiyasının Prezidenti
Vladimir Putinlə. 2003**

Həmin illərdə Azərbaycanda sənayenin inkişaf ritmi də yüksək idi. Ona görə bu təmayül Azərbaycanda özünə rahat yol tapdı və tədricən məişət janrıda

kompozisiyalara da sirayət etməyə başladı. T.Salahovun yaradıcılığında sərt üslubun gözəl nümunələri –



Çingiz Aytmatov, partiya və dövlət xadimi Vəli Axundov, Tahir Salahov və Qara Qarayev. Moskva, 1969

"Təmirçilər", "Yeni dəniz", "Səhər eşelonu" tablolarıdır. Məişət janrında kompozisiyalardan isə "Abşeron qadınları" tablosunu qeyd edə bilərik. Rəssamın sərt dəst-xətti hətta bəstəkar Qara Qarayevin portretində də duyulur. Bu tablolarda monumental incəsənətə xas olan elementlər sezilməkdədir.

Sərt üslub heç də rəssamın lirik hisslərdən məhrum olduğuna dəlalət etmir. "Abşeron motivi", "Pəncərə", "Bəstəkar Fikrət Əmirovun portreti", "Marinanın portreti", "Aydan" , "Anamın portreti" tablolarındakı incə ruh tamaşaçıda xoş ovqat yaradır. Tahir Salahov maraqlı səhnə tərtibatçısı kimi də tanınmışdır. "Antoni və Kleopatra", "Hamlet", "Aydın", "Koroğlu" və sair tamaşaların tərtibatı Azərbaycanda teatr tərtibatının klassik nümunələrinə çevrilmişdir.

Tahir Salahovun yaradıcılığı Azərbaycanda, eləcə də keçmiş SSRİ-də dövlət və cəmiyyət tərəfindən yüksək qiymətləndirilmişdir. Görkəmli sənətkar çoxsaylı nüfuzlu mükafatların və titulların sahibidir. Fırça ustası Sovet İttifaqının ən yüksək təltifləri və ordenlərinə layiq görülmüşdür.



Tamara Sinyavskaya və Müslüm Maqomayev rəssamın yubileyində. Moskva, 1998

Bakıda yaşadığı dövrdə isə Azərbaycan Rəssamlar İttifaqının sədri, respublika Ali Sovetinin deputatı, 1973-cü ildə SSRİ Rəssamlar İttifaqının birinci katibi seçilib. SSRİ Sosialist Əməyi Qəhrəmanı fəxri adına layiq görülüb.

Xarici ölkələrdə də sənətsevərlər bu sənətkarın yaradıcılığına yüksək qiymət verirlər. Rusiyanın "Vətən qarşısında xidmətlərinə görə" ikinci və üçüncü dərəcəli ordenlərinə, Bolqarıstan, Polşa, Monqolustan və başqa ölkələrin ordenlərinə, müxtəlif medallara və mükafatlara layiq görülüb. T.Salahov YUNESKO-nun nəzdindəki Millətlərarası Rəssamlar Federasiyasının vitse-prezidenti, habelə Rusiya İncəsənət Akademiyasının vitse-prezidenti seçilib. Elə buna görə də, bəzən Tahir Salahovu " milli incəsənətimizin səlahiyyətli səfiri" adlandırırlar.

Məşhur rəssam Rusiyanın və MDB–nin bir çox ölkələrinin rəssamlıq akademiyalarının, həmçinin Madriddəki San-Fernando Kral İncəsənət Akademiyasının və Fransa Zərif Sənətlər Akademiyasının müxbir üzvüdür. Amerika Birləşmiş Ştatlarının bir neçə şəhərinin və Montana ştatının fəxri vətəndaşıdır.



Rusiya və Amerika rəssamı Yuriy Kuper (Kuperman), Tatyana və Serj Sorokko rəssamın bağ evində. Moskva, 1999

Vətəni Azərbaycanda rəssam yüksək mükafatımız olan "İstiqlal" ordeninə layiq görülmüş, 2008-ci il noyabrın 27-də isə Azərbaycan Prezidenti İlham Əliyev Tahir Salahova "Heydər Əliyev" ordenini təqdim etmişdir.Yaratdığı əsərlərlə milli mədəniyyətimizin təbliğinə özünəməxsus töhfələr verən rəssamın 85 illik yubileyinin keçirilməsi haqqında dövlət başçısı sərəncam imzalamışdır. Bakının ən qədim və ən gözəl güşəsi olan İçərişəhərdə T.Salahovun ev-muzeyi təşkil olunmuşdur. Sağlığında şərəfinə açılan ev-muzeyini görmək hər yaradıcı ziyalıya qismət olmur. Ona görə sənətkara da, qalereyamızın yaxınlığında yerləşən Tahir Salahov Muzeyinə də uzun ömür arzulayıram.

*Eldəniz İbrahimov,*
*sənətşünas, "Abşeron" Rəsm Qalereyasının direktoru*

## "XƏZƏR"İN KOMANDASI ACM ICPC 2013-2014 OLİMPİADASININ RESPUBLİKA TURUNUN QALİBİ OLDU

Noyabrın 3-də Qafqaz Universitetində ACM ICPC 2013-2014 olimpiadasının respublika turu keçirildi. Turda ölkə universitetlərindən 50-yə yaxın komanda iştirak edirdi. Xəzər Universitetinin üç nəfərdən (olimpiadanın qaydalarına görə hər komandada üç nəfər olmalıdır) – Fərid Cəfərzadə (Mühəndislik və kompüter elmləri fakültəsi, informatika ixtisası üzrə magistraturanın 1-ci kurs tələbəsi), Hüseyn İsmayılov və Fərid Məmmədovdan (Mühəndislik və tətbiqi elmlər fakültəsi, kompüter mühəndisliyi ixtisası üzrə 1-ci kurs tələbələri) ibarət komandası bir neçə digər komanda ilə yanaşı olimpiadanın respublika turunun qalibi seçilərək, Tiflisdə keçiriləcək növbəti turda iştirak etmək hüququ qazanmışdır.

Tələbələrimiz Mühəndislik və tətbiqi elmlər fakültəsi dekanlığı tərəfindən təşəkkürnamə ilə təltif edilmişlər. Olimpiadanın növbəti mərhələsində onlara uğurlar arzulayırıq.

*Hazırda bütün mədəni dünyada keçirilən ACM ICPC olimpiadasının tarixi çox qədim olmasa da, dünya tədris məkanında böyük nüfuz qazanmışdır. İndi 100-ə yaxın ölkədə ACM (Hesablama Texnikası Assosiasiyası) ICPC formatında müvafiq yarışlar keçirir. Əsası 1977-ci idə Filadelfiya Universitetində qoyulmuş olimpiada Azərbaycanda da yeni deyil. İlk çıxışlar uğurlu olmasa da, həmvətənlərimiz artıq bu yarışların daimi iştirakçılarıdır.Tələbələrimiz isə ilk dəfədir ki, olimpiadada öz qüvvələrini sınayırlar.*



**Şəkildə *( soldan)*: Fərid Məmmədov, Hüseyn İsmayılov və Fərid Cəfərzadə**

*Vaxtilə bu yarışlarda ABŞ, Kanada və Avropa komandaları müvəffəqiyyətlə çıxış edirdilərsə, son illər MDB- nın gənc proqramçıları da xeyli fəallaşmış və davamlı qələbələrə imza atırlar.*

## "XƏZƏR"Ə TƏŞƏKKÜR MƏKTUBU

**Xəzər Universitetinin prorektoru,**
**professor Rafiq Əhmədova**

Hörmətli Rafiq müəllim!

Bildiyiniz kimi, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı (ATGTİ) ilə birgə 5 noyabr 2013-cü il tarixində Dövlət Bayrağı Meydanında 5000 nəfərdən çox tələbənin iştirakı ilə Dövlət Bayrağı Gününə həsr olunmuş fləşmob keçirmişdir. Fləşmob uğurlu alınmış və böyük maraqla qarşılanmışdır.

Bu tədbirə göstərdiyiniz diqqətə və verdiyiniz dəstəyə görə Sizə və təhsil müəssisənizin bütün rəhbərliyinə, TGT-sinə və iştirakçı tələbələrinizə öz dərin təşəkkürümüzü bildiririk.

Hörmətlə,
***ATGTİ sədri Şahin İsmayılov***
*12 noyabr 2013-cü il.*

## "ƏTRAF MÜHİTİ DƏYİŞƏN İNSAN FƏALİYYƏTİ" MÖVZUSUNDA MÜHAZİRƏ

Noyabrın 18-də Xəzər Universitetinin Coğrafiya və ətraf mühit departamentinin qonağı olan, ABŞ-ın Blaksmit İnstitutunun nümayəndəsi Andryu Makkartor "Dünyanın regional coğrafiyası" kursunda "Ətraf mühiti dəyişən insan fəaliyyəti" mövzusunda mühazirə oxumuşdur. Mühazirədən sonra dünyanın müxtəlif yerlərindəki zəhərli tullantılar və onların insana təsiri haqqında müzakirələr olmuş, A. Makkartor tələbələrin suallarına cavab vermişdir.

## DAĞLIQ QARABAĞA AİD DƏYİRMİ MASA



Xəzər Universitetinin Siyasi elm və beynəlxalq əlaqələr departamenti noyabrın 5-də Tomas de Vaal və Ceyms F. Kollins ilə Azərbaycanın beynəlxalq əlaqələri və Dağlıq Qarabağ münaqişəsi ilə bağlı problemlər mövzusunda dəyirmi masa təşkil edib. Müzakirə departamentin müdiri, fəlsəfə doktoru Muxtar Hacızadənin rəhbərliyi və tələbələrin də fəal iştirakı ilə interaktiv şəkildə keçirilmişdir. De Vaal Karnegi Fondunun baş elmi işçisidir. O, Cənubi Qafqaz regionu və bu regionda baş verən münaqişələr üzrə ixtisaslaşmışdır. Ceyms F. Kollins 1997- 2001-ci illərdə ABŞ-ın Rusiya Federasiyasında səfiri olmuşdur. O, "Carnegie Endowment"in Rusiya və Avrasiya proqramının direktorudur, keçmiş Sovet İttifaqı, postsovet dövlətləri və Orta Şərq üzrə mütəxəssisdir.

De Vaal bölgədə böyük dəyişiklikləri – pilotsuz təyyarələrdən infrastruktur təkmilləşdirilməsinə qədər olan müşahidələrini qeyd edib. O, Dağlıq Qarabağ üzrə sülh danışıqları zamanı mühüm məqamları, o cümlədən 1997-ci ildə Ter-Petrosyan və H. Əliyev arasında gedən danışıqları, 2001-ci ildə Key-west, 2011-ci ildə Kazan görüşlərini iştirakçılara xatırladıb. O qeyd elədi ki, Qarabağ dondurulmuş münaqişə deyil, dondurulmuş olan, əslində, diqqətin artırılması gərəkən sülh danışıqlarıdır. De Vaal Qarabağ münaqişəsinin həlli ilə bağlı heç bir dəyişikliyin olmamasını təəssüflə bildirib və bunu danışıqların "qeyri-dəyişiklik dinamikası" adlandırıb.Ceyms F. Kollins münaqişələrin, eləcə də, azərbaycanlılar üçün bilavasitə yaxın olan Qarabağ müharibəsinin emosional tərəfini anlamaq lazım olduğunu vurğulayıb. O, iştirakçılara münaqişələrin, hətta, diplomatik yolla həllinin çətinliyini xatırladıb. Onun fikrincə, Qərbin Qarabağ münaqişəsinin həlli ilə bağlı keçmişdə mövcud olan daha intensiv diqqəti hazırda Vaşinqtonun bugünkü problemləri ilə əlaqədar olaraq arxa plana keçib və beynəlxalq ictimaiyyət də Ermənistan və Azərbaycan, həmçinin əlaqədar tərəflərin yerinə qərar qəbul etməyə hazır deyil.

Tədbirdə iştirak edən ABŞ Səfirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən, fəlsəfə doktoru Stefen A. Guice məsələ barədə fikirlərini bölüşərək, ABŞ hökumətinin Dağlıq Qarabağ problemi üzrə irəliləyişin olacağına ümid etdiyini bildirib. Dövlət katibi Kerri münaqişənin həll olunması və nizama salınmasına çox çalışır, Prezident Obama bu yaxınlarda həllin tapılması barədə Prezident İlham Əliyevə məktub yazmış və səfir Vorlik isə ABŞ-ın yeni Minsk Qrupunun həmsədri elan edilmiş və münaqişənin həll olunmasında olduqca maraqlıdır.



## "UNİVERSİTET-İŞ DÜNYASI" MÖVZUSUNDA TOPLANTI

Noyabrın 14-də Qafqaz Universitetində "Universitet-iş dünyası" mövzusunda dəyirmi masa toplantısı keçirilmişdir. Toplantıda Bakının 20 universitetinin tədrislə bağlı rəhbər əməkdaşları iştirak etmiş və iş dünyası ilə əlaqələr üzrə zəngin təcrübələrə malik olan universitetlərdə aparılan işlərlə tanış olmaq, onların bu təcrübələrinin geniş yayılması və həmçinin digər təkliflər ilə əlaqədar fikir mübadiləsi aparmışlar.

Toplantıda Xəzər Universitetinin İdarəetmə və tələbə işləri üzrə prorektoru Rafiq Əhmədov iştirak etmiş və universitet-iş dünyası ilə əlaqədar həm tədris prosesində, həm də tədrisdən kənarda aparılan işlərdən geniş danışaraq, universitetin Karyera mərkəzinin, Mühəndislik və tətbiqi elmlər fakultəsində yaradılan Məsləhət Şurasının və Texnoparkın fəaliyyətini xüsusi qeyd etmişdir.

## ALİ MƏKTƏBLƏRDƏ BƏZİ FƏNLƏR LƏĞV EDİLƏCƏK

*Azərbaycanda 12 illik orta təhsil sisteminin tətbiqindən sonra ali məktəblərdə I və II kurslarda bir sıra ümumi fənlər ixtisar ediləcək*



Azərbaycanın təhsil naziri Mikayıl Cabbarov noyabrın 4-də jurnalistlərə bildirib ki, 12 illik təhsil dünyanın aparıcı təhsil sisteminə malik olan ölkələrində tətbiq edilir. Bu sistemin hazırkı təhsil sistemindən əsas fərqi məcburi təhsilalma müddətinin 10 il olmasıdır.

Öz təhsilini ali təhsil sistemində davam etdirmək istəyən şagirdlərə son 2 ildə müəyyən fənlərin dərindən öyrədilməsi planlaşdırılır. Ancaq bu islahat yalnız orta təhsil sisteminə deyil, ali təhsil sisteminə də təsir göstərəcək: "Belə ki, əgər hazırda ali təhsil sistemində I və II kurslarda bir sıra ümumi fənlər keçilirsə, 12 illik təhsil sisteminin tətbiqindən sonra I və II kurslarda həmin ümumi fənlərin ixtisarı nəzərdə tutulacaq. Bu da tələbələrə ali təhsil müddətində məhz öz seçdiyi ixtisaslara daha dəqiq yiyələnmək imkanı verəcək".

## 12 İLLİK TƏHSİLƏ KEÇİD QANUNİLƏŞDİ

*Azərbaycanda çoxdan müzakirəsi aparılan 12 illik ümumi təhsilə keçid "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda strateji hədəf kimi müəyyən olunub*

Təhsilin əsas strateji hədəf və tədbirləri sırasında məktəbə hazırlıq təhsilinin (1 il) icbariliyinin təmin olunması, erkən yaşlı uşaqların məktəbəqədər təhsillə əhatəsinin 90 faiz səviyyəsinə çatdırılması, 10 illik icbari ümumi orta təhsil və 2 illik tam orta təhsil modelinə mərhələli şəkildə keçidi təmin etməklə, 12 illik ümumi təhsil sisteminin yaradılması, tam orta təhsil səviyyəsində təhsil müəssisələrinin müxtəlif istiqamətlər üzrə bölünməsi də yer alıb.

Strategiyada həmçinin uşaqların erkən yaş dövründə inkişafının səmərəli təhsil modelinə əsaslanan standart və kurikulumların hazırlanması, məktəbəqədər yaşlı uşaqların fiziki və əqli inkişafını, sosiallaşmasını təmin edən, yaradıcılıq qabiliyyətlərini üzə çıxaran, onlarda həyati bilik və bacarıqları, davranış qaydalarını aşılayan təhsil standartlarının və yeni kurikulumların yaradılması, uşaqların davamlı inkişafına yönəlmiş pedaqoji fəaliyyətə dəstək vermək məqsədi ilə valideynlərin sistemli şəkildə pedaqoji - psixoloji maarifləndirilməsi üçün "Səriştəli valideynlər" proqramının təşkili, səriştə əsaslı ümumi təhsil standartları və kurikulumlarının hazırlanması, 12 illik ümumi təhsilə keçidin təmin olunması üçün mövcud təhsil standart və kurikulumlarının yenilənməsi, tam orta təhsil pilləsində təlimin istiqamətlər üzrə bölünməsi, kurikuluma əsaslanan yeni dərsliklərin yaradılması, şagird və müəllimlərin müvafiq dərslik seçiminin təmin olunması kimi müddəalar da əks olunub.

## TƏHSİL NAZİRİNİN RUS VƏ İNGİLİS DİLLƏRİNƏ DAİR ƏMRLƏRİ

*Təhsil naziri Mikayıl Cabbarov "İngilis dilinin intensiv tədrisi üzrə layihənin əhatə dairəsinin genişləndirilməsi" və "Rus dilinin intensiv tədrisi üzrə layihənin davam etdirilməsi" barəsində əmrlər imzalayıb*

Əmrə əsasən, 2013-2014-cü tədris ilində ölkə üzrə 50 pilot məktəbdə "İngilis dilinin intensiv tədrisi üzrə layihənin əhatə dairəsinin genişləndirilməsi" layihəsinin həyata keçirilməsi qərara alınıb. Dərs ili ərzində 520 nəfər ingilis dili müəlliminin müvafiq təlimlərdə iştirakının təmin olunması, pilot məktəblərin dərslik və dərs vəsaitləri ilə təmin edilməsi məsələləri də əmrdə əksini tapıb.

İkinci əmrə əsasən, 50 tam orta məktəbin I-IV və V-IX siniflərində rus dilinin intensiv tədrisi üzrə Təhsil Nazirliyinin layihəsinin davam etdirilməsi nəzərdə tutulub.

## AZƏRBAYCANDA GƏNCLƏRİN SAYI AÇIQLANDI

*Son 10 ildə gənclər siyasətinin əsas istiqamətləri həm kəmiyyət, həm də keyfiyyət baxımından təsirsiz ötüşməyib və bu dövrdə gənclərin sayı 350 min nəfər artaraq, 2 milyon 799 minə çatıb*



Onlar əhalinin 30,3 faizini təşkil edirlər. Bu barədə gənclər və idman naziri Azad Rəhimov məlumat verib. A. Rəhimovun sözlərinə görə, gənclərin birlik və bərabərliyinin, inteqrasiyasının, fikir və təcrübə mübadiləsinin təmin edilməsi, maraqlarının, dünyagörüşünün genişləndirilməsi və sosial aktiv təbəqəyə çevrilməsi üçün fərqli layihələrin həyata keçirilməsi vacibdir: “Bu mənada "Gənclər evləri"nin, xüsusi mərkəzlərin yaradılması və səmərəli fəaliyyətinin təmin edilməsi mühüm əhəmiyyətli məsələyə çevrilib. Bu tikililər dövlət proqramlarında qeyd edilmiş məsələlərin, eləcə də bu sahə ilə bağlı dövlət siyasətinin əsas müddəalarının həyata keçirilməsi üçün birləşdirici məkana çevrilməkdədir. Artıq ölkənin 19 rayon və şəhərində belə müəssisələr fəaliyyət göstərir. Bu il Mingəçevir şəhərində Gənclər Evi istifadəyə verilib. Hazırda Daşkəsən rayonunda "Gənclər üçün təlim və istirahət mərkəzi"nin tikintisi davam edir və mərkəzin bu il istifadəyə verilməsi nəzərdə tutulur. "Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramı"na əsasən, Naxçıvan, Gəncə, Sumqayıt, Şirvan, Bərdə, Tovuz, Quba rayonlarında isə “Gənclər evlərinin” inşası aparılır. Şəki şəhəri və Şamaxı rayonunda isə yaxın zamanlarda “Gənclər evləri”nin tikintisinə başlanılacaq. "Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"na əsasən Binəqədi, Xəzər, Sabunçu, Qaradağ və Suraxanı rayonlarında da “Gənclər evləri”nin tikintisi davam etdirilir".

Nazir qeyd edib ki, son 10 il ərzində gənclər sahəsində qeyri-hökumət təşkilatlarının sayı 4,6 dəfə artaraq 51-dən 230-a çatıb. Gənclərin təşəbbüslərini və ictimai fəallığını stimullaşdırmaq məqsədi ilə onların dəstəklənmiş layihələrinin sayı 2006-cı illə müqayisədə 40 dəfə (12-dən 357-dək), layihələrə ayrılmış maliyyə vəsaiti 44 dəfəyədək (175,5 min manatdan 7825 min manatadək) artıb: “Bu fəallıq təkcə Azərbaycan sərhədləri ilə hüdudlanmır. Azərbaycan gəncliyi bu gün beynəlxalq aləmdə seçilmək, dünya gənclər hərəkatının aparıcı qüvvələri arasında yer almağa iddialıdır. Son on ildə gənclərin beynəlxalq əməkdaşlığı xeyli genişlənib, ikitərəfli və çoxtərəfli əlaqələrin olduğu dövlətlərin sayı 62-yə çatıb".

## “İCTİMAİ DAVRANIŞ QAYDALARI - GƏNCLİYİMİZİN QARANTIDIR ”

*“Gələcək Naminə” Vətəndaş Cəmiyyətinin İnkişafına Dəstək İctimai Birliyi Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə “İctimai davranış qaydaları - gəncliyimizin qarantıdır!” layihəsinin icrasına başlayıb*

Layihənin məqsədi regionlarda vətəndaşlar arasında ictimai davranış qaydalarının təbliği, **r**egion gənclərini ətraf aləmə, cəmiyyətə daha həssas və diqqətli olmağa təşviq etmək, gənclərin ictimai davranış qaydalarının təbliği sahəsində fəaliyyətlərini dəstəkləmək və koordinasiya etməkdir.

Məqsəd həm də region gəncləri ilə paytaxt gəncləri, o cümlədən qeyri-hökumət təşkilatları arasında əlaqələndirici rolunu oynamaq, regionda yaşayan və fəaliyyət göstərən xüsusi xidmət orqanlarının əməkdaşları ilə yerli vətəndaşlar arasında ictimai yaxınlığı daha da artırmaqdır. Layihə Hacıqabul və Mingəçevir rayonlarında icra ediləcək. Hər bir regionda gənclərin ictimai davranış qaydaları haqqında geniş maarifləndirilməsi üçün ictimai görüşlər keçiriləcək. Layihə müddətində gənclərin iştirakı ilə küçələrdə ictimai davranış qaydaları mövzusunda müxtəlif problem situasiyalar qurulacaq və gənclərin həmin situasiyalarda iştirakı təmin olunacaq. Gənclər qrupu təşkil olunacaq və bu qrup vasitəsilə ictimai davranış qaydalarının təbliği daha geniş bir coğrafiyaya yayılacaq. Layihə çərçivəsində maarifləndirici nəşrlər hazırlanacaq. Gənclərin daha çox toplandığı yerlədən biri olan sosial şəbəkələrdə də maarifləndirici aksiyalar keçiriləcək.

## ƏMƏKDAŞLARIMIZ ARXEOLOGİYA VƏ ETNOQRAFİYA İNSTİTUTUNUN YUBİLEY TƏDBİRİNDƏ



Noyabrın 10-14-də Bakıda AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun 20 illik yubileyi münasibətilə "Azərbaycan arxeologiya və etnoqrafiya elmləri müstəqillik illərində" mövzusunda beynəlxalq elmi konfrans keçirilmişdir. Konfransı açan Arxeologiya və Etnoqrafiya İnstitutunun direktoru, tarix elmləri doktoru Maisə Rəhimova son illərdə Azərbaycanın müxtəlif regionlarında institutun 50-dən artıq arxeoloji və etnoqrafik ekspedisiyalarının fəaliyyət göstərdiyini, institutda arxeoloji və etnoqrafik tədqiqatlarla yanaşı epiqrafika və numizmatika sahəsində də əhəmiyyətli işlər görüldüyünü vurğulamışdır.

Konfransda yerli alim və mtəxəssislərlə yanaşı Rusiya, Moldava, Qazaxıstan və Gürcüstandan olan arxeoloq və etnoqraflar, Azərbaycanda Beynəlxalq Arxeoloji Ekspedissiyanın xarici təmsilçiləri, həmçinin Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müdiri, tarix elmləri üzrə fəlsəfə doktoru Roza Arazova ("Azərbaycanda erkən əkinçilik mədəniyyətinin trasoloji öyrənilməsi") və Xəzər Universitetinin "Azərbaycan arxeologiyası" jurnalının baş redaktoru, tarix elmləri doktoru Qüdrət İsmayılzadə ("Quruçay və Köndələnçay vadisi arxeoloji kompleksləri Azərbaycanın qədim əkinçilik mədəniyyətləri kontekstində") məruzələrlə çıxış etdilər.

İştirakçılar ölkənin muzeyləri və abidələri, Arxeologiya və Etnoqrafiya İnstitutunun yeni açılmış ekspozisiyası ilə də tanış olmuş, konfransın bir günü isə Qobustanda keçirilmişdir.

## TƏHSİL NAZİRLİYİNDƏ İCTİMAİ ƏLAQƏLƏR VƏ MƏTBUAT XİDMƏTİ RƏHBƏRLƏRİNİN ÜMUMİ TOPLANTISI KEÇİRİLDİ

Noyabrın 15-də Azərbaycan Respublikası Təhsil Nazirliyində respublikada fəaliyyət göstərən ali məktəblərin ictimai əlaqələr və mətbuat xidməti rəhbərlərinin ümumi toplantısı keçirildi. Toplantını giriş sözü ilə Təhsil Nazirliyinin QHT və KİV-lə iş sektorunun müdiri, İnformasiya şöbəsinin müdir müavini Cəsarət Valehli açaraq, ali məktəb nümayəndələrini salamladı. C. Valehli ilk görüşün tanışlıq xarakteri daşıdığını və bu cür görüşlərin mütəmadi olaraq hər ay ayrı-ayrı universitetlərdə keçiriləcəyini bildirdi.

Tədbirdə universitetlərin nümayəndələri, o cümlədən Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli çıxış edərək, onları narahat edən problemlər haqqında fikirlərini söylədilər. Növbəti görüşün dekabr ayında Bakı Dövlət Universitetində keçirilməsi qərara alındı.

## XƏZƏR UNİVERSİTETİ KİTABXANA İNFORMASİYA MƏRKƏZİ ELEKTRON İNFORMASİYA BÜLLETENİ BURAXMAĞA BAŞLAMIŞDIR

Xəzər Universiteti Kitabxana İnformasiya Mərkəzi universitetin professor-müəllim heyətini və tələbələri kitabxanaya daxil olan yeni ədəbiyyatla tanış etmək və həmin ədəbiyyatı operativ olaraq onların istifadəsinə vermək məqsədilə elektron İnformasiya bülleteni buraxmağa başlamışdır.

İnformasiya bülleteninin 1-ci sayının "Bədii ədəbiyyat", "Tarix", "Konfrans və simpozium materialları" və "Digər" bölmələrində 60-a qədər yeni kitabın adı verilmişdir. İnformasiya bülleteninin buraxılışı davam etdiriləcək.

# ARE YOU MISUNDERSTOOD WHEN YOU SPEAK ENGLISH? THEN DON'T WASTE TIME AND IMPROVE YOUR PRONOUNCIATION

***Kamala Asgarova***
***Senior Teacher, English Language and Literature Department***
***Khazar University***



Usually some of the new students, mainly freshmen, have difficulties pronouncing words in English. Sometimes they are ashamed to utter a word in English for fear of their own mistakes that they may commit in front of other students. Because of these reasons students may not be able to improve their pronunciation, or it may be difficult for them to do so. My main goal is to bring the issue of pronunciation to your attention in a broad sense as an important component of your speech. If you are not able to build proper pronunciation in your speech while communicating with other native or non-native speakers, people talking to you may misunderstand you or will have difficulties in getting what you are saying at all.

Why do these problems often occur, and why is pronunciation one of the challenging issues in linguistics per se?

Linguists often point out that such problems may occur because of the mother tongue pronunciation and rules that it follows. That is to say, mother tongue and foreign language learning use the same patterns in linguistics. Or in other words, putting it more scientifically, *the linguistic awareness* of at least one language (in most cases it is the mother tongue), in the students, leads to difficulties in building up their pronunciation in a foreign language.

Another question is this: why are these problems observed in our country more often now, than, let's say, 10-15 years ago (this is based on my long term teaching experience)?  I do not intend to talk about the causes; instead, I'll try to share my own experience that can help you improve your language.

In the ex-Soviet times, for many people English was just a `*passive*` language that wasn't used or practiced much in society or in organized institutions. During that time, my brother spoke 4 languages, including English, he was certainly proud of that. He "*absorbed"* English mainly through songs. Once, there was a big international exhibition in Baku where my brother worked as an interpreter. I was shocked to see him speaking English to the foreigners.

"You aren't supposed to speak English here," I said to him.

"Why not?"  He wondered.

"Because your grammar is bad, and you make many mistakes," I replied.

"But they say my English is very good. And I am not an English teacher who has to speak perfectly," he added.

Only many years later I realized that his very good pronunciation made his English so *«attractive»* to foreigners. In spite of his rough (in my opinion) grammar mistakes, he sounded quiet sufficient.

Sometimes you can confuse `*past simple*` and `*present perfect*', for example, *I DID* instead of *I HAVE DONE* or vice versa. This isn't a very big deal at all, as later on you can improve your grammar, for example, through writing.  But if you don't sound clear, then the person talking to you gets nervous or irritated. It is obvious that if someone doesn't catch what you say, then he gets mixed up. Moreover, all your bright ideas, presentations or projects might not impress the audience.  Probably some people even try to avoid your company, but you don't understand the reason. Have you ever had such a negative experience either inside or outside the classroom? A study at the University of Leicester says that "English is now a lingua franca-with more non-native speakers in the world than native speakers." The

whole world speaks English now. Don't forget that the majority of people speak with the characteristic charm of their original language. For example, you can easily identify Italians speaking English, as you catch the 'musical shade' of their original language.

But incomprehensible speech and characteristic notes of the original language are very different notions.

So what can you do to improve your pronunciation and articulation? Here are some tips that can certainly help you make your language more adequate:

- Practice as much as possible during your English classes and outside the classroom because "Practice makes perfect";

-Read your English books (newspapers, internet materials) aloud as if you were a TV announcer;

-Listen to different dialogues, texts, etc., and try to repeat or imitate them

-Watch movies (or TV programs) in English;

-Listen to English songs and sing;

-Recite English verses (poems).

Now, are you ready to take this challenge and enjoy your good English?

Don't waste time. Try and try again to be intelligible and bright.

I also recommend a deep investigation of the interrelationship between the syntax, morphology and phonetics of students' native languages and foreign languages for future study.

Good luck with your English language learning!

*Note*

***Lingua franca is a language systematically used to make communication possible between people not sharing their mother tongue, like a common language.***

## WHAT IT TAKES (AND MEANS) TO LEARN ENGLISH AS AN ADULT

***by Kavitha Cardoza***
***November 01, 2013 3:20 AM***
***Enlarge image***

Ana Perez never made it to high school. Her education ended after the sixth grade, when war broke out in her native El Salvador. She says she's "desperate" to learn English, but she gets nervous trying to speak it. Immigrants like Perez see English as the key to a better life. Many hope learning the language will help lift them out of poverty and integrate them into American society. But gaining English proficiency is a difficult task amid everyday obligations.

There are millions of adults — mostly immigrants — who grew up in the United States speaking a language other than English at home; many of them are still held back by their limited language skills. Of those, only 3 to 5 percent are being served in English classes, says Heide Wrigley, a senior researcher at Literacywork International.

Researcher Wrigley says she's often asked, "Why can't immigrants just learn English?" She says she has to remind people how difficult it is to learn another language and how long it takes. "It doesn't just require that you learn the grammar and the pronunciation. You need thousands of words," she says.

**The Motivation**

Despite how difficult it is, many immigrants keep at it. When asked why she wants to learn English, Hong looks confused. The answer seems so obvious: "I live in America; I am American." Hong's dream is to learn enough English so she can go on a road trip by herself. One of her classmates says longingly she'd love to make American friends; another wants to help her child with homework.

Wrigley says immigrants' ability to speak English is about more than just the language — it makes for a stronger, more integrated country. "It's really a way to support social cohesion and to feel like you're part of that fabric of the wider U.S. community," she says.

**Published on National Public Radio, USA** (http://www.npr.org/2013/11/01/241889567/what-it-takes-and-means-to-learn-english-as-an-adult)

## GÜRCÜSTANIN YENİ PREZİDENTİ - GEORGİ MARQVELAŞVİLİ

*Oktyabrın 27-də keçirilmiş seçkilərdə "Gürcü arzusu" koalisiyasının prezidentliyə namizədi, keçmiş təhsil naziri və baş nazirin müavini Georgi Marqvelaşvili Gürcüstanın 4-cü prezidenti seçildi. Bəs, Marqvelaşvili kimdir?*



Georgi Marqvelaşvili 1969-cu il sentyabrın 4-də Tiflisdə anadan olub. 1992-ci ildə Cavahişvili adına Tiflis Dövlət Universitetinin fəlsəfə və psixologiya fakültəsini bitirib. Elmlər Akademiyasının Fəlsəfə İnstitutunda təhsilini davam etdirərək, fəlsəfə doktoru elmi dərəcəsi alıb. Sonra Mərkəzi Avropa Universitetində sosiologiya təhsili alıb.

Ancaq Marqvelaşvili universiteti bitirdikdən sonra ixtisası üzrə işləməyərək, alpinistlərə tur rəhbərliyi etməyə, xarici turistləri dağlara aparmağa başlayıb. Eyni zamanda da, marginal psixologiyanı araşdıran bir laboratoriyada texnik işləyib. Bunun ardınca bir biznes şirkətində satış departamentini idarə edib və nəhayət, 1996-cı ildə yenidən elmi fəaliyyətə qayıdıb. 1996-97-ci illərdə Müstəqil Tiflis Universitetində "Mədəniyyətlərarası məna və əlaqə tarixi" mövzusunda mühazirə oxuyub.

Ancaq bu işə başlamazdan bir il əvvəl Marqvelaşvilinin yolu onu siyasətlə tanış edən vətəndaş cəmiyyəti təşkilatı ilə kəsişmişdi. O, 1994-cü ildə Gürcüstanda fəaliyyətə başlayan ABŞ Milli Demokratiya İnstitutunda (MDİ) tərcüməçi işləməyə başlayır. Sonra köməkçi və layihə meneceri kimi fəaliyyət göstərdiyi MDİ-də 5 il işləyib.

Marqvelaşvili MDİ-dən digər bir qərb layihəsinə - Gürcüstan Xalqla Əlaqələr İnstitutuna (GİPA) keçib. Gürcüstan üçün idarəçilər, QHT rəhbərləri, jurnalistlər yetişdirən bir quruma çevrilən, liberalizmi və Qərbə inteqrasiyanı təşviq edən GİPA-da 6 il rektor olan Marqvelaşvili elə bu illərdə siyasətə qoşulur.

2003-cü ildə Gürcüstanda "Qızılgül inqilabı"ndan əvvəl Zurab Jvaniya ilə yaxın dost olan Marqvelaşvili dostunun dəstəyi ilə böyük siyasətə qoşulur və Nino Burcanadzenin rəhbərlik etdiyi demokratlar blokunun parlament seçkilərindəki namizədlər siyahısında ilk 10-luqda yer alır. Ancaq özünün dediyinə görə, həmin dövrdə bu blokda təmsil olunan Mixeil Saakaşvili ilə aralarında olan gərgin münasibətlərə görə bu siyasi blokla öz arasında həmişə məsafə saxlayıb.

Marqvelaşvili bu günə qədər siyasətdə hər zaman "Qızılgül inqilabı"nın 3 əsas simasından biri olan Zurab Jvaniyanın adamı kimi tanınıb. 2005-ci ildə o dövrün parlament sədri olan Jvaniyanın şübhəli ölümünün ardınca isə Marqvelaşvilinin Saakaşvili rejimi ilə münasibətləri daha da pisləşdi.

2006-cı ildə Marqvelaşvili GİPA rektorluğundan istefa verərək, bu institutda Elm departamentinin rəhbəri kimi fəaliyyətini davam etdirib. Ancaq 2010-cu ildə yenidən rektor seçilib. Bununla eyni zamanda Marqvelaşvili 2008-ci ildə Nino Burcanadzenin Rusiya-Gürcüstan müharibəsindən az əvvəl qurduğu Demokratik İnkişaf Fondunun direktoru vəzifəsini icra etməyə başlayıb.

Lakin müharibədən sonra Burcanadze müxalifətə keçdi və qurduğu QHT fəaliyyətsiz hala düşdü. Marqvelaşvili bu vəzifədə özünü göstərə bilmədi və həm QHT, həm də Burcanadze ilə yollarını ayırdı.

Həmin ərəfədə isə Gürcüstan siyasətində artıq yeni bir güc – milyarder Bidzina İvanişvilinin rəhbərlik etdiyi "Gürcü Arzusu" Koalisiyası yaranırdı və Marqvelaşvili də bu prosesin içində olmağı üstün tutdu.

O, 2012-ci ildə "Gürcü Arzusu" Koalisiyasından deputat seçildi, ardınca isə elm və təhsil naziri postuna təyin edildi. 2013-cü ilin yanvar ayında baş nazir İvanişvili müdafiə naziri İrakli Alasaniyanı nazir və baş nazirin müavini postundan kənarlaşdırdı. Boş qalan baş nazirin müavini postuna isə Marqvelaşvilini təyin etdi. Bunun ardınca isə sürpriz bir qərarla Marqvelaşvilini "Gürcü Arzusu"nun prezidentliyə namizədi elan etdi.

### MARQVELAŞVİLİNİN DOSTLARI

Marqvelaşvilinin dostları mövzusu Gürcüstanda

son illərin müzakirə mövzularından biridir. Yeni prezidentin dostları arasında hətta Saakaşvili rejiminin yüksək rütbəli məmurları və ideoloqlarından olan Giqa Bokeriya, Nika Rurua, Levan Ramiaşvili kimi simalar var. Bununla yanaşı, Marqvelaşvilinin dostları siyahısında "əxlaqsız Avropa"ya qarşı çıxışları ilə tanınan gürcü biznesmen Levan Vasadze və Gürcüstan Ortodoks Kilsəsinin üzvləri də var. Buna görə də, onu "Qərb tərəfdarı" və ya "Rusiya tərəfdarı" adlandırmaq çox da asan deyil.

## MÜBAHİSƏLİ ŞƏXSİ HƏYAT

Seçki dövründə Marqvelaşvili ilə bağlı müzakirə olunan əsas mövzulardan biri də onun şəxsi həyatı idi. O, iki dəfə evlənib, indi isə rəssam və gözəllik üzrə mütəxəssis Maka Çiçua ilə birgə yaşayır. İlk evliliyindən Anna adlı 20 yaşında bir qızı olan Marqvelaşvilinin yanında seçki kampaniyası dövründə hər zaman Maka Çiçua var idi. Maka Çiçua, eyni zamanda, Marqvelaşvilinin qızının dostunun anasıdır.



Bu isə mühafizəkar və ailə institutuna əhəmiyyət verən gürcü cəmiyyəti üçün yeni bir hadisədir. Hətta Svaneti əyalətinin bir kəndində vətəndaşlar kollektiv şəkildə İvanişviliyə məktub yazaraq, Marqvelaşvilinin Çiçua ilə münasibətlərini rəsmiləşdirmədiyinə görə, gürcü əxlaq qanunlarını pozduğunu bildirmişdilər.

Bununla belə, Marqvelaşvili seçki dövründə ona ünvanlanan "Çiçua ilə evlənəcəksinizmi?" sualına "xeyr, bizə belə yaxşıdır" cavabını vermişdi. Seçkilərdə qalib gəldikdən sonra tərəfdarlarının qarşısına da sevgilisi Maka Çiçua və Moskvada magistraturada oxuyan qızı Anna ilə bərabər çıxmışdı.

## HÖRGÜ HÖRƏN, PİŞİK SAXLAYAN, EV TƏMİR EDƏN PREZİDENT

Marqvelaşvilinin şəxsi həyatı ilə bağlı açıq danışması gürcülərin bir hissəsində təəccüb doğurarkən, digər bir hissəsində simpatiya qazanıb. Digər tərəfdən də. yeni prezidentin xalqın diqqətini çəkən digər xüsusiyyətlərindən də bəhs edilir.

Marqvelaşvilinin kifayət qədər sadə və təvazökar insan olduğu və çox sadə bir həyat tərzi keçirdiyi bildirilir. Tiflisdə atasından qalan 165 kvadrat metrlik bir evdə yaşayan və 120 kvadrat metr həyətyanı sahəyə sahib olan Marqvelaşvilinin Duşeti kəndində də 200 kvadrat metrlik bir evi və 3 boş torpaq sahəsi var.



Yeni prezidentin Duşetidəki qonşuları Marqvelaşvilinin buradakı evini şəxsən özünün təmir etdiyini bildirirlər. Marqvelaşvili özü də təmir işlərinin onun üçün bir hobbi olduğunu deyir.

Prezidentin digər bir hobbisi isə hörgü hörməkdir. Bir müddət öncə sosial şəbəkələrdə onun əlində iynə-sap olan şəkli yayılmış, bunun ardınca isə Marqvelaşvili hörgü hörməyi sevdiyini açıqlamışdı. O, digər bir açıqlamasında isə pişikləri çox sevdiyini və iki pişiyinin olduğunu bildirib.

Marqvelaşvilinin bu xüsusiyyətləri nə qədər simpatiya yaratsa da, Gürcüstan cəmiyyətində tənqidlərə də səbəb olur. Ancaq o, bu vəziyyətindən məmnundur və həyat tərzini dəyişməyə hazırlaşmır.

Onu da qeyd edək ki, yeni prezident seçki kampaniyası dövründə sabiq prezident Saakaşvilinin prezidentliyinin birinci dövründə tikdirdiyi prezident iqamətgahında qalmayacağını açıqlamışdı. O, bu sarayın onun üçün çox böyük olduğunu bildirmiş və prezident iqamətgahının əməkdaşlarının sayını da azaldacağını açıqlamışdı. Marqvelaşvili eyni zamanda demişdi ki, prezident iqamətgahı olması məqsədilə inşa edilmiş binaya Xarici İşlər Nazirliyi köçə bilər. Bunun baş tutub-tutmayacağını isə yaxın gələcək göstərəcək.

*Lent.az*

# WHY READ CLASSICS?

***Lidiya Gamidova***
***Senior Teacher, English Language and Literature Department***
***Khazar University***



How important is reading classics for teaching and learning situations? It is my belief that literature and literary texts are fundamental to the English curriculum because such texts involve the use of language and the imagination to represent, recreate, shape and explore human experience. Through reading literature, students extend their understanding of the world and of themselves and come to see how cultural beliefs and values have been formed and continue to be shaped. Literary texts and accompanying discussions and writing practice develop skills that can be transferred to other reading materials.

Therefore, students want to understand why they are exposed to and recommended to read, communicate, and then compose their own texts on the basis of a literary piece and how useful it is for their current lives. Texts should be selected for teaching and reading classics not only on the basis of literature, but also for their language-use value to give students an opportunity to acquire familiarity with the current use of the language.

Very often, strange texts are chosen which are not useful for drawing out learners' potential for communicating information and achieving educational goals such as being involved into argument and research.

Literary texts should include varied sentence structures and high-frequency words to enable students to process information and apply it to various situations. Texts should provide conditions for such mental processes as analyzing, generalizing, problem solving, investigating, comparing, experimenting and creating.

Upon becoming critical thinkers, students can 1) explain a point of view, 2) understand how characters in texts are developed, 3) give reasons for personal preferences, 4) create texts that show understanding and the connection between writing, speech and images, 5) express ideas, hypothesize, negotiate and evaluate the context, 6) interact in pairs and class discussions, which results in organizing their thinking for effective mass communication.

Thus, teaching and developing critical thinking and reading skills on the basis of literary texts is desirable because it promotes English literacy in general and enables learners to express themselves more or less effectively in written and spoken English. English literacy is important for all who intend to function in an English-speaking academic and career environment. An English curriculum should include literary pieces with the purpose of developing learners' analytical skills for speaking and writing.

In my opinion, the best definition of analysis is found in The Concise American Heritage Dictionary: “Analysis is the separation of a whole into constituents with a view to its examination and interpretation.”

## AZƏRBAYCAN GÜLLƏKEÇİRMƏZ ŞÜŞƏLƏRİN İSTEHSALINA BAŞLADI

*Xüsusi texnologiya əsasında hazırlanmış şüşələr mənzillərin, müxtəlif obyektlərin, habelə hərbi poliqonların müşahidə məntəqələrinin inşasında istifadə oluna bilər*



Bu barədə APA-ya şüşəni istehsal edən şirkətdən məlumat verilib. Xüsusi texnologiya əsasında hazırlanmış şüşələr mənzillərin, müxtəlif obyektlərin, habelə hərbi poliqonların müşahidə məntəqələrinin inşasında istifadə oluna bilər. Artıq Azərbaycan daxilində bu şüşələr üçün bir sıra fərdi şəxslər və dövlət qurumlarından sifarişlər alınıb.

Şüşə mühafizə səviyyəsinə görə beynəlxalq sertifikat alıb. Şirkətin meneceri Elməddin Ağamalıyevin sözlərinə görə, hazırda müəssisə iki fərqli TT tapançaları və 7.62 mm çaplı AK-47 avtomatlarına qarşı dözümlü şüşələr istehsal edir. Şüşələr atıcı silahlarla yanaşı, qəlpələrdən də qorumanı təmin edir. Güllə dəydiyi halda qəlpələnmə vermir.

Gələcəkdə sifarişlər olduğu halda zirehli maşınlar və döyüş texnikaları üçün də şüşələrin istehsalına başlanılacaq.

## MÜHƏNDİSLƏRİMİZ REAKTİV ATƏŞ SİSTEMİ HAZIRLAYIBLAR

*Azərbaycan mühəndisləri tərəfindən kiçik ölçülü reaktiv atəş sistemi hazırlanıb*



Bu barədə APA-ya hərbi mənbələrdən məlumat verilib. Daşınması asan olan, istənilən nəqliyyat vasitəsinin üzərinə qurula bilən 15 lüləli reaktiv atəş sistemi S-8 raketlərindən (80 mm) atəş açır. Sistem rəqibin yaxın məsafədəki hədəflərini məhv etmək üçün nəzərdə tutulur. Bununla yanaşı, sistemin əsgərlər tərəfindən əldə daşına bilən, lülə sayı daha az olan ikinci modifikasiyası da hazırlanıb.

Azərbaycan istehsalı olan bu sistem üçün ölkə daxilində yeni tip S-8 raketləri istehsal olunacaq. Aparılacaq təkmilləşmə nəticəsində klassik S-8 raketlərinin ölçülərinin qısaldılması, atış uzaqlığının və təsir imkanlarının artırılması nəzərdə tutulur.

Qeyd edək ki, S-8 raketlərinin atış uzaqlığı 3 min metrədəkdir.

## GÖRMƏ QÜSURLU İNSANLAR ÜÇÜN SMART EYNƏK

*ABŞ-ın Oksford Universitetinin alimləri görmə qabiliyyəti məhdud olan insanlar üçün çoxfunksiyalı smart eynək yaratmışlar*

Dünya işığından məhrum olmuş insanların əksəriyyəti işıq və hərəkəti qavramaq iqtidarındadır və hazırlanan qurğu məhz bu imkanlardan istifadə məqsədini daşıyır.

Alimlərin sözlərinə görə, bu eynəklərin funksiyaları zəif görən adamlara yollarında meydana gələn maneələr haqqında təkcə ümumi təsəvvür əldə etməyə deyil, həm də avtobus dayanacağı, qapı oyuğu və ya şəxsi əşyalar kimi faktiki obyektləri tanımağa imkan verəcək. Bu eynəklər vasitəsilə toplanan informasiya təsvir üçün üzvi işıq diodlu (OLED) şəffaf displeyə köçürülür.

Smart eynək obyektlərə qədər olan məsafəni müəyyənləşdirən kamera və infraqırmızı proyektorla, eləcə də kompas, "GPS" peyk naviqasiya sistemi və hiroskop (bədənin səmt bucaqlarının dəyişməsinə reaksiya verən qurğu) ilə təchiz olunmuşdur.

# ПСИХОФИЗИОЛОГИЧЕСКИЕ ПОКАЗАТЕЛИ ОПЕРАТОРА И КОМПЬЮТЕРНОЕ ОБУЧЕНИЕ

*Может ли компьютер использовать индивидуальные показатели обучаемого и параметры окружающей среды в процессе самостоятельного обучения? При самом поверхностном просмотре на проблему, выявляется мульти-параметрический портрет обучаемого и условий обучения, которые объективно отражаются на процессе восприятия материала. Напрашивается необходимость расширения обучающих средств компьютера, нацеленное на сближение возможностей самостоятельного и традиционного обучения. Понятно, что такая работа должна вестись в нескольких направлениях. Начиная от необходимой исследовательской работы и кончая созданием программно-технического обучающего комплекса. Усилиями специалистов разных направлений в настоящее время разработана гипотетическая принципиальная схема такого комплекса, а так же программа исследований. В обсуждениях принимали участие электронщики, математики, медики и программисты. Пробные, первичные лабораторные исследования, проведенные в прошлом семестре, помогли определить организационные и технические сложности работ в этом направлении и выявили необходимые шаги их решения.*

Вместе с тем, на основании анализа существующих публикаций касательно нашей темы можно утверждать, что:

1. Инженера - электронщики уже напридумали разнообразные мобильные компактные датчики, но, что называется, не знают, что с ними делать. Множество технических разработок фактически не востребованы, ввиду недостаточности исследований, направленных на расшифровку мульти-параметрического портрета пользователя компьютера. С другой стороны, существующие устройства громоздки и не привлекательны для студента. К примеру, предложенный белорусскими коллегами монитор, рассматриваемый ниже, в нынешнем виде может использоваться только как исследовательское оборудование. И даже в этом качестве при работе со студенческим контингентом возникают проблемы организационного характера.

*“Медицинский монитор 12” с набором датчиков*

Монитор предназначен для слежения за жизненно важными функциями организма, измерения и оценки параметров физиологического состояния пациентов (взрослых и детей), получения и обработки основной информации о физиологических параметрах пациентов и их нарушениях в реальном масштабе времени.

Монитор позволяет проводить измерение артериального давления, частоту сердечных сокращений, распределение температуры в локальной области кожного покрова, степени насыщения гемоглобина кислородом ($SpO_2$), параметров электрокардиограммы и частоту дыхания пациента, а также осуществить анализ газовой смеси в схеме дыхания пациента.

Монитор имеет возможность передачи данных на персональный компьютер.

Параметры, контролируемые монитором:

**ЭКГ $SpO_2$ НИАД ИАД ТЕМП ЧД ЧСС CSM**

Как видно, показатели специфичны для медицинских учреждений. Большинство из этих показателей, как известно из литературы, достаточно информативны и для процесса обучения.

2. Многие педагогические центры утверждают, что за онлайн обучением - будущее. Но при этом пути повышения эффективности такого обучения ограничены. Роль традиционного учителя как лица управляющего процессом обучения и сегодня не заменима, как и во времена Аристотеля. Это обусловлено, в том числе, творческим использованием опытными преподавателями множества вторичных показателей в процессе обучения, именно в реальном масштабе времени!

Актуальность темы проекта очевидна и подтверждается общемировыми тенденциями в создании автоматических систем оценки и мониторинга психического и физиологического состояния человека.

Прошедшим летом представитель Белорусского научного объединения «Интеграл», автор

множества интересных научных публикаций С. Шестопалов, выступивший лекцией о своих изысканиях перед нашими студентами, проявил живой интерес данной работе. Как результат этого интереса появились собственный анализ и предложения о совместной работе белорусских ученых. Работу в Минске возглавил профессор Татур, заведующий кафедрой в Минском университете. Кстати, данной кафедрой долгое время руководил наш соотечественник, математик профессор Садыков. Ниже приводим предложения коллег, которые, безусловно, заслуживают самого пристального внимания.

*Содержание проекта можно разбить на три этапа:*

а) Провести комплекс экспериментальных исследований и определить набор параметров, наиболее информативно характеризующих психо-физическую усталость человека.

Для этого будет применено указанное оборудование и использован опыт наших организаций в работе  с этим оборудованием и его программным обеспечением. В ходе выполнения проекта планируется разработать и организовать интерфейс медицинского монитора с обычным компьютером, посредством которого будет сниматься информация с монитора, а затем обрабатываться обычными программными средствами.

Анализ усталости человека может проводиться как по совокупности параметров , так и по отдельно взятому параметру. Как правило, для оценки физиологического состояния человека используются: электро кардиограмма (ЭКГ, ECG); частота дыхания (берется из ЭКГ);  пульс (берется из ЭКГ или SpO2); SpO2 пульсаксонометрия; температура; давление; активность мозга. Для измерения этих параметров применяют соответствующие датчики, которые есть в комплекте в прикроватном мониторе.

б) Разработать и апробировать методику проведения измерений, оптимизировать состав и объем обрабатываемых данных, разработать алгоритмы статистического анализа данных и принятия решений, оценить достоверность получаемых оценок (DataMining).

Настоящий этап является наиболее наукоемким в проекте. По его итогам будет написан ряд статей в престижных индексируемых журналах, сделаны доклады на международных конференциях, поданы заявки для участия в международных исследовательских программах (FP7).

в) По результатам исследований, проведенных по п.2, будут сформированы технические требования, по которым будет разработано прикладное программное обеспечение и интерфейс пользователя, позволяющие автоматизировать процесс проведения исследований и анализа измеренных данных.

В целом, медицинский монитор с датчиками, подключаемый к ним персональный компьютер с прикладным программным обеспечением образуют «Систему мониторинга усталости человека».

Как видим, намечается весьма серьезная и обстоятельная работа. С нашей стороны в данной теме задействованы два департамента Университета Хазар: Департамент электроники под руководством профессора Н. Сафарова и Департамент Компьютерных наук под руководством Д-р Л. Мурадхановой. Подготовлен и приставлен проект на государственный конкурс с целью получения соответствующего гранта. Предполагается при благополучном исходе приобретение необходимого оборудования, в том числе монитора с датчиками у белорусской стороны с дальнейшей  адаптацией последнего педагогическим задачам. Общее научное и организационное руководство данной работой ведет учредитель Университета Хазар, профессор Г. Исаханлы. По его мнению, создаваемый программно технический комплекс должен заинтересовать множество инстанций, использующих в своей работе элементы профессионально психологического тестирования. К примеру, второй этап тестирования соискателей, во многих организациях называемый обычно собеседованием, предполагает выявление в том числе, психофизиологических показателей испытуемых. Наша работа призвана в том числе, автоматизации этого процесса.

Радует, что в данной работе предполагается тесное взаимодействие с учебным процессом и непосредственное участие наших студентов. Результаты обещают быть полезными не только для ВУЗов, но и для множества других областей народного хозяйства.

**Этибар Рзазаде,**
**Директор компютерного центра**
**Университета Хазар**

## BRİTANİYA DEPUTATLARININ BÜTPƏRƏSTLİYİ

*Britaniyanın 4 keçmiş baş nazirinin parlamentin binasında qoyulan abidələrinin ətrafı hasarlana bilər*





BBC-nin i məlumatına görə, bununla həmin heykəlləri deputatlardan qorumaq istəyirlər.

Parlament üzvləri arasında belə bir inanc mövcuddur – parlamentdə yaxşı çıxış etmək üçün Çörçill və ya Tetçerin abidələrinin ayaqlarına əllə toxunmaq lazımdır.

Ancaq sarayın kuratoru bildirib ki, belə toxunmalar heykəllərə ziyan vurur.

Ona görə də hələlik "Əl vurmayın!" lövhəciyini vurmaqla kifayətləniblər. Ancaq bu xəbərdarlıq deputat ənənəsini pozmazsa, o zaman heykəlləri əl çatmaz hasarla deputat ənənəsindən qoruyacaqlar.

## ÇİN DƏNİZ İPƏK YOLUNUN YARADILMASINI TƏKLİF EDİR

*Çin Sakit okean hövzəsi və Cənub-Şərqi Asiya ölkələri ilə dəniz ipək yolunun yaradılmasına çalışır*

Çin Xalq Respublikasının sədri Si Cinpinin oktyabr ayında Malayziya və İndoneziyaya dövlət səfəri zamanı, eləcə də onun iştirakı ilə keçirilmiş Asiya-Sakit okean İqtisadi Əməkdaşlığı (APEC) Forumu liderlərinin 21-ci görüşündə, habelə Çinin baş naziri Li Keçyanqın da iştirak etdiyi Cənub-Şərqi Asiya Ölkələri Assosiasiyasına (ASEAN) üzv ölkələrin hökumət rəhbərlərinin Bruneydə keçirilmiş görüşündə bu fikir irəli sürülmüşdür.

Mütəxəssislər hesab edirlər ki, hər iki səfər Çinin sözügedən region ölkələri ilə iqtisadi əməkdaşlığın genişləndirilməsinə marağını nümayiş etdirir. Bu əməkdaşlığın genişlənməsində yeni nəqliyyat yollarının, xüsusilə də dəniz yollarının tapılması zərurəti ortaya çıxır. Çinin təklif etdiyi rəmzi dəniz İpək Yolu bu baxımdan maraq doğurur.

***Şahin Cəfərov,***
***AzərTAc-ın xüsusi müxbiri***
***Pekin***

## PAKİSTANLI YENİYETMƏ QIZI KRALİÇA QƏBUL EDİB

*Britaniya kraliçası II Yelizaveta oktyabrın 19-da pakistanlı gənc qız Məlala Yusifzaini Bukinhem sarayında qəbul edib*



Pakistanda gənc qızların təhsil alması uğrunda mübarizə aparan 16 yaşlı Yusifzai Avropa Parlamentinin insan haqları üzrə təsis etdiyi Saxarov mükafatını alıb. Parlamentin sədri Martin Şults jurnalistlərə müsahibəsində bildirmişdir ki, parlamentin bütün siyasi qrupları mükafatın yalnız öz hüquqları deyil, eyni zamanda, ölkədəki bütün qızların hüquqları və təhsil almaları uğrunda qorxmadan və yorulmadan mübarizə aparan qıza verilməsi ilə bağlı ümumi razılığa gəlmişlər.

Saxarov mükafatı 1988-ci ildə təsis edilmişdir. Mükafat insan haqları və fikrini azad ifadə etmək uğrunda mübarizə aparan şəxslərə və təşkilatlara verilir. Əlli min avro dəyərində olan mükafat noyabr ayında Strasburqda keçiriləcək tədbirdə təntənəli şəkildə Məlalaya təqdim olunacaqdır.

2012-ci ildə Məlala məktəbə gedərkən taliban tərəfindən başından güllə ilə vurulub və Britaniyada müalicə olunub. Taliban onu öldürəcəyi ilə hədələyir.

## CON KENNEDİNİN QIZI ABŞ-IN YAPONİYADAKI SƏFİRİ TƏYİN EDİLMİŞDİR

*ABŞ parlamentinin yuxarı palatası keçmiş prezident Con Kennedinin qızının ABŞ-ın Yaponiyadakı səfiri vəzifəsinə təyin edilməsinə yekdilliklə səs vermişdir*



Kerolayn Kennedi ABŞ-ın Yaponiyada ilk qadın səfiri və Kennedilər ailəsinin bu vəzifəyə təyin edilmiş üçüncü nümayəndəsidir.

K.Kennedinin namizədliyi ABŞ Prezidenti Barak Obama tərəfindən onun ikinci müddətə seçilməsi kampaniyasında göstərdiyi fəallığa görə irəli sürülmüşdür. Senat yanında xarici işlər komitəsi onun namizədliyini ilkin olaraq sentyabrın 30-da bəyənmişdi. Təyinat ərəfəsində Senatda aparılan dinləmələr zamanı K.Kennedi səfir vəzifəsində olduğu müddətdə mərhum atasının başladığı işi davam etdirəcəyini vəd vermişdir.

K.Kennedi 2009-cu ildə Nyu-York ştatından senator yeri uğrunda mübarizəyə başlamış, lakin sonra namizədliyini geri götürmüşdür.

Yaponiya hökumətində C.Kennedinin qızının ABŞ-Yaponiya qarşılıqlı münasibətlərinin daha da möhkəmlənməsində mühüm rol oynayacağına inanırlar.

***Vüqar Ağayev,***
***AzərTAc-ın xüsusi müxbiri***
***Tokio***

## OMAN VƏ QƏTƏR ƏHALİNİN ARTIM SÜRƏTİNƏ GÖRƏ DÜNYADA ÖNDƏ GEDİRLƏR

*BMT-nin Əhali Fondunun (UNFPA) oktyabrın 30-da dərc olunmuş məruzəsində belə bir proqnoz verilir: 2015-ci ilədək Oman və Qətər əhalisinin illik artımı bu göstərici üzrə onların təkcə İran körfəzi ölkələri arasında deyil, həmçinin bütün dünyada ön mövqelərini qoruyub saxlamağa imkan verəcəkdir*

Ekspertlərin hesablamalarına görə, qarşıdakı iki ildə Oman və Qətər əhalisinin sayı müvafiq surətdə 7,9 və 5,9 faiz artacaqdır. Ərəbistan yarımadasının bütün ölkələrində, bir qayda olaraq əhalinin güclü artımı – Səudiyyə Ərəbistanında 1,8 və Yəməndə 2,3 faiz olacaqdır. BƏƏ-də 2,5 və Küveytdə 3,6 faizədək artımının müşahidə ediləcəyi gözlənilir. Müqayisə üçün qeyd edək ki, 2013-cü ildə 350 milyon nəfər əhalisi olan bütün ərəb ölkələri üçün bu göstərici 1 faiz səviyyəsində proqnozlaşdırılmışdır.

İran körfəzi ölkələrindən fərqli olaraq Şərqi Avropa dövlətləri "demoqrafik qışın" nəticələrini hiss etməkdədirlər. Əhalinin sayının azalması üzrə ən yüksək göstəricinin Moldova və Bolqarıstanda (0,8 faiz), Ukraynada (0,6 faiz), Serbiya, Belarus və Litvada (0,5 faiz) qeydə alınacağı gözlənilir.

BMT-nin ekspertləri hesablamışlar ki, 2013-cü ilə olan vəziyyətə görə, Rusiya əhalisinin sayı 142,8 milyon nəfərdir, 2015-ci ilədək əhalinin hər il 0,2 faiz azalacağı gözlənilir, orta nəsilartırma qabiliyyəti əmsalı 1,5-dir. Gözlənilən orta ömür müddəti kişilər üçün 62, qadınlar üçün 74 yaşdır.

Əhalisinin sayına görə rekordçu ölkələr arasında ənənəvi olaraq Çin Xalq Respublikası (ÇXR) və Hindistan fərqlənirlər – müvafiq olaraq 1,385 və 1,252 milyard nəfər. Özü də Hindistanda əhalinin artım səviyyəsi ÇXR-dəkindən iki dəfə yüksəkdir və 1,2 faiz təşkil edir. Orta ömür müddətinin Yaponiyada daha çox olacağı gözlənilir: kişilər arasında 80 və qadınlar arasında 87 yaş habelə Avstraliya və İsveçrədə - kişilər arasında 80 və qadınlar arasında 85 yaş. Ən aşağı orta ömür müddətinin Syerra-Leonedə müşahidə ediləcəyi gözlənilir: kişilər arasında 45, qadınlar arasında 46 yaş.

## "MUĞAM TELEVİZİYA MÜSABİQƏSİ – 2013"




*Heydər Əliyev Fondunun dəstəyi, Mədəniyyət Fondunun layihəsi, Azərbaycan Televiziyasının təşkilatçılığı, Mədəniyyət və Turizm Nazirliyinin iştirakı ilə üç ay ərzində keçirilən "Muğam televiziya müsabiqəsi–2013" noyabrın 6-da başa çatıb*



Artıq dördüncü dəfə keçirilən muğam televiziya müsabiqəsi 500-dən çox gəncin iştirakı ilə başlanmışdı. Münsiflər heyəti, həmişə olduğu kimi, xalq artistləri Əlibaba Məmmədov, Arif Babayev, Səkinə İsmayılova, Ağaxan Abdullayev, Mənsum İbrahimov, əməkdar incəsənət xadimi, Bəstəkarlar İttifaqının katibi Sərdar Fərəcov və əməkdar incəsənət xadimi, müsabiqənin təşkilat rəhbəri Nadir Axundovdan ibarət olub.

Akademik Milli Dram Teatrında müsabiqənin final mərhələsinə çıxmış gənc ifaçılar Xətai Hacıyev, Gülnar Qüdrətli, Babək Quliyev, Ramiq Bayramov, Zümrüd Məmmədova, Sərxan Bünyadzadə və Mirpaşa Şükürov "Muğam" instrumental ansamblının müşayiəti ilə tamaşaçılar və münsiflər heyəti qarşısında bir daha imtahan veriblər.

Münsiflər heyətinin qərarı ilə 14 iştirakçıya diplom, Murad Əbduləzimov və Ayşən Mehdiyevaya "Tamaşaçıların rəğbəti" mükafatı verilib. Sərxan Bünyadzadə birinci, Xətai Hacıyev, Zümrüd Məmmədova ikinci, Ramiq Bayramov, Gülnar Qüdrətli və Babək Quliyev isə üçüncü yerləri tutublar. Müsabiqənin 12 yaşlı iştirakçısı Mirpaşa Şükürov yarışmanın ən yüksək mükafatına - "Qran-pri"yə layiq görülüb.



## "ARŞIN MAL ALAN" TÜRKİYƏDƏ

*"Arşın mal alan" operettası Ankara Dövlət Opera və Balet Teatrının repertuarına daxil edilmişdir*



Operettanı əməkdar incəsənət xadimi Hafiz Quliyev səhnələşdirmişdir. Ankara Dövlət Opera və Balet Teatrının simfonik orkestrinə Mustafa Ərdoğan dirijorluq edir.

Tamaşada Gülçöhrə rolunu Dolun Erdener, Əsgəri isə Emrah Sözər ifa edirlər. Azərbaycan milli rəqslərini isə tanınmış xoreoqraf Dəniz Çığ hazırlamışdır.

***Oqtay Bayramov,***
***AzərTAc-ın xüsusi müxbiri***
***İstanbul***

## NİZAMİ GƏNCƏVİ BEYNƏLXALQ MƏRKƏZİNƏ QIZILLA İŞLƏNMİŞ QURAN HƏDİYYƏ EDİLMİŞDİR

*Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin orijinal kolleksiyasına yeni əlyazmalar əlavə olunub*



Mərkəzdən APA-ya verilən məlumata görə, bunlar, əsasən, XVII əsrə aid olan Bəqərə və Fatihə surələrinin 14sm x 20sm ölçüsündə olan qızılla işlənilmiş orijinallarıdır. Təqdim olunan əlyazmaların ən önəmlisi isə Osmanlı dönəminin ən məşhur xəttatı olan Şeyx Həmdullah (1436-1520) tərəfindən yazılmış Qurani-Kərimdir. Şeyx Həmdullah bütün həyatını heyrətamiz gözəllikdə olan 47 ədəd Quran kitabını yazmağa həsr edib.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzi Şərq mədəniyyətinin ən nadir incisi sayılan Nizami Gəncəvi "Xəmsə"sinin əlyazma və illüstrasiyalarının artıq Bişkek, Vaşinqton, İskəndəriyyə və Tbilisi daxil olmaqla ondan çox şəhərdə sərgisini təşkil edib.

2014-cü ildən başlayaraq isə İsgəndəriyyə Kitabxanası, Türkiyə Milli Kitabxanası və Küveyt Fondu ilə birgə "İpək Yolu" layihəsi çərçivəsində mövcud əlyazma və illüstrasiyalar daha geniş tamaşaçı kütləsinə təqdim olunacaq.

## "AZƏRBAYCANIN ARXEOLOJİ QIZIL VƏ GÜMÜŞ ƏŞYALARI" KATALOQU NƏŞR OLUNMUŞDUR

*Məlumdur ki, Azərbaycan ərazisində arxeoloji qazıntılar zamanı əcdadlarımızın həyatını əyani şəkildə araşdırmağa imkan verən müxtəlif tarixi eksponatlar aşkar edilir; onlar sırasında tikinti qalıqları, məişət aşyaları, əmək alətləri, silahlar çoxluq təşkil etsələr də, qədim dövrün zinət və bəzək əşyaları da az deyildir*




Arxeoloji qazıntılar nəticəsində aşkar olunaraq AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyinə (MATM) verilmiş bu tipli əşyalarla bağlı kitab-kataloq çap edilmişdir.

Muzeydən AzərTAc-a bildirmişlər ki, "Azərbaycanın arxeoloji qızıl və gümüş əşyaları" adlı kataloqun elmi redaktoru MATM-ın direktoru, akademik Nailə Vəlixanlı, mətnin müəllifi muzeyin xüsusi fondunun müdiri Afət Rüstəmbəyovadır.

Kataloqda 130 ədəd qiymətli metaldan ibarət arxeoloji tapıntı barədə məlumat yer almışdır. Bu əşyalar eramızdan əvvəl II minillikdən eramızın XVII əsrinədək olan dövrü əhatə edir.

Nəşrin giriş mətnində Azərbaycanda qədimdə qızıl hasilatı, zərgərlik sənətinin texnologiyaları və məmulatlarının arxaik formaları, torevtika ənənələri haqqında məlumat verilmişdir. Maraqlıdır ki, ilk dəfə olaraq təqdim olunan bütün arxeoloji əşyalar rentgen-fluoressensiya analizləri ilə öyrənilmiş, nəticədə məmulatların tərkibi düzəldilmə texnologiyası və dövrü xırdalıqlarına qədər araşdırılmışdır. Kataloq hər əşyanın fotoşəkli, ölçüsü, düzəldilmə texnikası, tərkibi, tapıntı yeri barədə müfəssəl məlumatı əhatə edir.

Kataloq Azərbaycan və ingilis dillərində nəşr olunmuşdur.

## ROBER OSSEYN AZƏRBAYCAN QADINI HAQQINDA TAMAŞA HAZIRLAYACAQ

*Bakıda III Beynəlxalq Humanitar Forumda iştirak etmiş Azərbaycan əsilli fransız aktyoru Rober Osseyn AzərTAc-a müsahibəsində valideynlərinin Azərbaycan torpağından olmalarından və özünün bu ölkəyə aidliyindən qürur duyduğunu bildirmişdir*



"Burada gördüklərim məndə böyük təəssüratlar yaratdı. Çünki burada bütün dinlərin və xalqların nümayəndələri bir ailə kimi yaşayırlar. Bu, məndə böyük fərəh hissi oyadır. Hesab edirəm ki, dinlər və xalqlar arasında Azərbaycanda olan münasibətlər dünyanın heç bir yerində yoxdur. Fəxr edirəm ki, mən də bu xalqın bir parçasıyam" - deyə, o bildirmişdir. Azərbaycanda mövcud olan yüksək tolerantlıq, humanizm səviyyəsindən fərəhləndiyini bildirən Rober Osseyn qeyd etmişdir ki, əgər bütün dünyada belə şərait olsa, insanlar çox xoşbəxt olardılar.

Aktyor Azərbaycanda insani münasibətləri, qadınlara olan hörməti bütün dünyaya göstərmək üçün tamaşa hazırlamağı düşünür. Dünyanın heç bir yerində qadına belə münasibətin şahidi olmadığını deyən aktyor tamaşanın çariça Tomris timsalında Azərbaycan qadınına həsr olunacağını diqqətə çatdıraraq demişdir: "Tamaşa lap qədimdən müasir dövrümüzə qədər Azərbaycan cəmiyyətində qadının rolundan bəhs edəcəkdir. Səhnə əsərinin hazırlanmasında Azərbaycan dövləti və Heydər Əliyev Fondunun dəstəyinə də ümid bağlayıram. Azərbaycanda qadına olan ehtiramı dünya ictimaiyyətinə çatdırmağı özümə borc bilirəm. Əgər bu fikri reallaşdıra bilsəm, bu, mənim incəsənətlə bağlı sonuncu işim olacaq. Əsas amalım odur ki, bu tamaşanı Parisdə nümayiş etdirim".

## QARABAĞ ATLARI HAQQINDA FİLM

*Azərbaycan və Almaniyanın birgə istehsalı olan "Qarabağ atının səyahəti" adlı tammetrajlı sənədli filmin çəkilişlərinə start verilib*

Filmin əsas ideyası Qarabağ atlarının bir çox keyfiyyətlərinə - xarici görünüşü, parametrləri, hətta insana olan sədaqətinə görə dünyada ən yaxşı at olduqlarını nümayiş etdirməkdən ibarətdir.

Filmin sonunda baş qəhrəman olan qızın söyləyəcəyi fikir bu ideyanı bir daha təsdiq edir: "Biz bir daha inandıq ki, Qarabağ atlarının vətəni Azərbaycan torpağı - Qarabağdır". Çəkilişlər Bakıda, o cümlədən, Ağcabədi, Quba və digər rayonlarımızda aparılacaq.Filmin rejissoru Villy Neuman, operatoru Andre Böhm, ssenari müəllifi Martin Vaquer, icraçı prodüseri isə Nadir Əliyevdir.

## BOLQARISTANDA MƏDƏNİYYƏT POLİSİ YARADILACAQ

*Bolqarıstan hökuməti ölkə abidələrinin təhlükəsizliyini qorumaq üçün mədəniyyət polisi yaratmaq niyyətindədir*



Yeni qanunu qəbul etmək üçün Bolqarıstanın mədəni irsi barədə qanunu dəyişdirməyə ehtiyac vardır. 61 nəfərlik işçi qrupu yeni qanunun müzakirəsinə başlamışdır. Qanun 2009-cu ildən dəyişdirilməmişdir.

Bolqarıstanda son dəfə mədəniyyət abidəsinin oğurlanması bu ilin oktyabrayında baş vermişdir. O zaman oğrular paytaxt Sofiyada Vasila Levskinin abidəsinin bəzi detallarını oğurlamışdılar.